## Azərbaycan Müdafiə Nazirliyi Ermənistanın iddialarını təkzib edib



**Ordumuzun bölmələri tərəfindən Azərbaycan-Ermənistan dövlət sərhədində guya atəş açılması və nəticədə Ermənistan silahlı qüvvələrinin hərbi qulluqçusunun vəfat etməsi barədə Ermənistan Müdafiə Nazirliyinin yaydığı məlumat yalandır.**

"Şərq" xəbər verir ki, bu barədə Azərbaycan Müdafiə Nazirliyindən bildirilib.

"Bu məlumatı qəti surətdə təkzib edirik", - nazirlikdən qeyd edilib.



## Metroda qatardakı nasazlığa görə sərnişinlər düşürülüb

**"Həzi Aslanov-Dərnəgül" marşrutu üzrə hərəkət edən qatarda yaranan texniki nasazlıq səbəbilə sərnişinlər "Nizami" stansiyasında düşürülüb.** Bu barədə "Şərq"ə "Bakı Metropoliteni" QSC-nin mətbuat xidmətinin rəhbəri Bəxtiyar Məmmədov məlumat verib. B.Məmmədovun sözlərinə görə, qatar texniki baxış üçün depoya göndərilib. Əvəzinə ehtiyat qatar xəttə verilib. Yubanma intervaldan əlavə 2 dəqiqə olub.


❒ № 159 (5681), 2022-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 7 sentyabr 2022-ci il (çərşənbə)






## Azərbaycanda kəşfiyyat və döyüş PUA-ları istehsal olunub

**Müdafiə Sənayesi Nazirliyi Bakıda keçirilən "ADEX 2022" dördüncü Azərbaycan Beynəlxalq müdafiə sərgisində kəşfiyyat və döyüş pilotsuz uçuş aparatlarını (PUA) təqdim edib.**

Sərgidə "Turaz" PUA nümayiş etdirilib. Bu aparat həm quru, həm də dəniz üzərində hərəkət etmək iqtidarındadır. Onun uçuşu üçün müvafiq infrastruktur tələb olunmur. PUA üç kilometr yüksəklikdə kəşfiyyat əməliyyatları keçirə bilir, uçuş sürəti 110 kilometr/saat, uçuş müddəti 2-3 saat təşkil edir.

"Zərbə" PUA həm kəşfiyyat apara, həm də zərbələr endirə bilər.

(səh.3)



# Azərbaycan bütün riskləri neytrallaşdırıb

### Ermənistan sülh müqaviləsini Bakının tələbinə uyğun imzalamalıdır



Bu halda İrəvan regional kommunikasiyalara qoşulacaq

**Ermənistan xalqı 30 il boyunca öz hakimiyyətinin yürütdüyü yanlış işğalçılıq siyasətinin bədəlini ödəyib və tənəzzülə məhkum olub.**

Əgər İrəvan yenidən sülh müqaviləsini uzadarsa, prosesi ləngitməyə çalışarsa, yenə də ilk növbədə itirən özləri olacaq.

Çünki Azərbaycanın strategiyası, yolu bəllidir. Düzdür, Nikol Paşinyanın dilindən sülh müqaviləsi haqda sözlər eşidilir, ancaq dəfələrlə sübut olunub ki, Ermənistan tərəfinə son ana qədər güvənmək olmaz. Amma fakt faktlığında qalır ki, Ermənistanın başqa yolu da yoxdur. Çünki Azərbaycan yetərincə güclüdür və qalib tərəfdir.

(səh.3)

## Bakıda hərbi məhsullar və texnikalar nümayiş olundu

### Sərgiyə dünyanın 30-a yaxın ölkəsindən 200-dən artıq şirkət qatılıb

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 6-da Bakı Ekspo Mərkəzində keçirilən IV Azərbaycan Beynəlxalq Müdafiə "ADEX" və XIII Beynəlxalq Daxili Təhlükəsizlik, Mühafizə və Xilasetmə "Securex Caspian" sərgiləri ilə tanış olub.**

AZƏRTAC xəbər verir ki, əvvəlcə dövlətimizin başçısı Bakı Ekspo Mərkəzinin daxili pavilyonlarındakı stendlərlə tanış oldu.

Müdafiə naziri Zakir Həsənov, müdafiə sənayesi naziri Mədət Quliyev və Türkiyənin Baş qərargah rəisi Yaşar Güler dövlətimizin başçısına sərgi haqqında məlumat verdilər.

Bildirildi ki, builki sərgidə dünyanın 30-a yaxın ölkəsindən 200-dən artıq şirkət iştirak edir.

(səh.2)

## Ceyhun Bayramov İspaniyaya rəsmi səfərə gedib



**Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov İspaniyanın Madrid şəhərinə rəsmi səfərə yola düşüb.**

Bu barədə "Şərq"ə XİN-dən məlumat verilib.

Səfər çərçivəsində nazir Ceyhun Bayramovun İspaniya Krallığının Xarici İşlər, Avropa İttifaqı və Əməkdaşlıq naziri və bir sıra digər yüksək səviyyəli rəsmi şəxslərlə ikitərəfli görüşlərinin keçirilməsi nəzərdə tutulub.

# İtaliyada azərbaycanlı gənc çayda boğulub

### Helena həyat yoldaşının nəşini Azərbaycana aparmaq üçün yardım aksiyasına başlayıb



**Çexiyada yaşayan Sərkər adlı azərbaycanlı gənc çayda boğulub.**

Hadisə 28 avqustda baş verib. O, evli olduğu Helena adlı xanımla gəzintiyə çıxıb və İtaliyanın Komo gölündə qayıq kirayələyib.

Sərkər suya yıxılan qızı xilas etmək üçün onun arxasınca suya tullanıb. O, qızı xilas etsə də, özü suda boğulub.

(səh.3)

## Britaniyanın yeni baş naziri söz verib

### Vergilər azaldılacaq və enerji böhranı həll olunacaq



**Böyük Britaniyanın yeni baş naziri Liz Trass yeni vəzifəsində ilk çıxışı zamanı vergiləri azaltmağa və enerji böhranının həll etməyə söz verib.**

Bu barədə Trend xarici KİV-lərə istinadən xəbər verir.

"Mən insanların ehtiyac duyduqları zaman həkimə getmələri və Milli Səhiyyə Xidmətlərindən (NHS) istifadə etmələrinə şərait yaradacağam. İqtisadiyyat, enerji və NHS sahələrində yaxşı nəticə göstərsək, səhiyyəmizi möhkəm təməl üzərində saxlamış olacağıq", - deyə L.Trass bildirib.

Baş nazir qeyd edib ki, onun ilk prioritetlərindən biri "ağır işi mükafatlandırmaq və biznesin böyüməsini və investisiyanı təşviq etmək" üçün vergiləri azaltmaq olacaq.

L.Trass həmçinin enerji böhranını həll etməyə və "gələcək enerji təchizatını təmin etməyə" söz verib.

## 6 nəfər vəfat edib

### Son sutkada daha 492 nəfər koronavirusa yoluxub





**Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına 492 yeni yoluxma faktı qeydə alınıb, 556 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 6 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 816 087 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 802 951 nəfər müalicə olunaraq sağalıb, hazırda 3 305 aktiv xəstə var. Bu günə qədər 9 831 nəfər vəfat edib.

*Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 4 487, bu günə qədər isə ümumilikdə 7 176 524 test icra olunub.*

## Qusarda qadın meyiti tapılıb

### Onun qətlə yetirildiyi ehtimal olunur



**Qusar rayonunda gənc qadının yaşdığı evdə ölü tapılıb.**

"Report"un Şimal bürosunun verdiyi xəbərə görə, rayon sakini, 1995-ci il təvəllüdlü Ellada Rauf qızı Əlifxanovanın yaşadığı evdə meyiti aşkarlanıb.

İlkin məlumata görə, gənc qadın ailə münaqişəsi zəminində əri tərəfindən öldürülüb. Meyit müayinə olunması üçün Səhiyyə Nazirliyinin Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin Qusar Rayon Şöbəsinə yerləşdirilib. Gənc qadının ölümünün dəqiq səbəbləri ekspertizanın rəyindən sonra məlum olacaq. Onun ölümündə şübhəli bilinən, əri Zedik Muxtar oğlu Əlifxanov saxlanılıb. Faktla bağlı araşdırmalara başlanılıb.



## Vardanyanın "Qarabağa köçməsi" piardır

### Milyarderin əsl məqsədi Ermənistanın lideri olmaqdır

(səh.5)

## Dərslər arxasınca tıxaclar gətirəcək

### Eldəniz Cəfərov: "Tam aradan qaldırılmasa da mərhələ-mərhələ sıxlığın qarşısını almaq olardı"



(səh.7)



# Bakıda hərbi məhsullar və texnikalar nümayiş olundu

## Sərgiyə dünyanın 30-a yaxın ölkəsindən 200-dən artıq şirkət qatılıb

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 6-da Bakı Ekspo Mərkəzində keçirilən IV Azərbaycan Beynəlxalq Müdafiə ”ADEX” və XIII Beynəlxalq Daxili Təhlükəsizlik, Mühafizə və Xilasetmə ”Securex Caspian” sərgiləri ilə tanış olub.**

AZƏRTAC xəbər verir ki, əvvəlcə dövlətimizin başçısı Bakı Ekspo Mərkəzinin daxili pavilyonlarındakı stendlərlə tanış oldu.

Müdafiə naziri Zakir Həsənov, müdafiə sənayesi naziri Mədət Quliyev və Türkiyənin Baş qərargah rəisi Yaşar Güler dövlətimizin başçısına sərgi haqqında məlumat verdilər.

Bildirildi ki, builki sərgidə dünyanın 30-a yaxın ölkəsindən 200-dən artıq şirkət iştirak edir. Müasir silah və texnikanın nümayiş etdirildiyi bu genişmiqyaslı tədbir pandemiyanın yaratdığı məcburi fasilədən sonra yenidən keçirilir. Sərginin xüsusi əhəmiyyəti ondan ibarətdir ki, o, Azərbaycanın İkinci Qarabağ müharibəsində qazandığı şanlı Zəfərdən sonra ilk dəfə təşkil olunur. Sərgidə Azərbaycan Ordusunun Qələbəsində müstəsna rol oynamış ölkənin hərbi-sənaye kompleksinin gücü və qüdrəti, müasir silahlar nümayiş olunur.

Qeyd edildi ki, ”ADEX” müdafiə sərgisinin iştirakçıları arasında Türkiyə, Rusiya, İran, Bolqarıstan, Çin, Fransa, İtaliya, Niderland və digər ölkələrin müdafiə sektorunun aparıcı şirkətləri var. İlk dəfə İordaniyadan olan şirkətlər də sərgiyə qatılıb. Bu il 8 ölkə milli stendləri ilə iştirak edir. Bir çox ölkələr öz milli ekspozisiyalarının sahələrini böyüdüblər.

Prezident İlham Əliyev Azərbaycan Müdafiə Sənayesi Nazirliyinin pavilyonunda nümayiş etdirilən hərbi məmulatlara baxdı. Milli Təhlükəsizlik Qüvvələrinin ehtiyaclarını ödəmək üçün müdafiə təyinatlı məmulatların, döyüş sursatlarının, zirehli hərbi texnikanın və digər vasitələrin yaradılması, istehsalı, təkmilləşdirilməsi, təmiri, utilizasiyası, idxalı/ixracına və xarici bazarlarda satışına cavabdeh olan nazirliyin pavilyonlarında son illərdə ölkəmizdə istehsal olunan yüngül və ağır hərbi texnikalar nümayişə çıxarılıb. Döyüş kəşfiyyat texnikası, çoxməqsədli, kəşfiyyat və zərbə pilotsuz uçuş aparatları, müxtəlif çaplı atıcı silahlar, mühəndislik texnikaları və digər hərbi texnikalar sərginin maraq doğuran eksponatları sırasındadır.

Türkiyə Respublikası sərgidə ən çox şirkətlərlə təmsil olunan ölkələrdən biridir. Müdafiə sənayesində ən müasir və qabaqcıl texnologiyalardan geniş istifadə edən qardaş Türkiyə sərgidə 42 şirkət ilə təmsil olunub. Bu şirkətlərdən biri olan ”HAVELSAN” 1982-ci ildə Türkiyə Silahlı Qüvvələrinin Gücləndirilməsi Fondunun tərkibində yaradılıb. Şirkət təkcə müdafiə, təhlükəsizlik və İT sahələrində texnologiyaları inkişaf etdirməklə kifayətlənmir, həm də özünün yüksək texnologiyalı proqram həllərini hazırlayır və simulyatorlar istehsal edir. ”HAVELSAN”, həmçinin yeni nəsil texnologiyalar, xüsusilə də süni intellektlə əlaqəli məhsullar, layihələr və sistemlər hazırlayır. Prezident İlham Əliyev şirkətin məhsulları ilə tanış oldu.

Türkiyəni təmsil edən ”Roketsan” şirkəti 1988-ci ildə qurulub. Şirkət müxtəlif növ raketlər, reaktiv silahlar, atış və hərəkət sistemləri ilə birlikdə idarə olunan döyüş sursatları, istiqamətləndirmə-idarəetmə sistemləri, döyüş başlıqları, mexaniki hissələr, alqoritm və proqram təminatını hazırlayır və istehsal edir, onları quru, hava və dəniz platformaları ilə birləşdirir. Eyni zamanda, bu sistemlərə maddi-texniki dəstək verir, raket yanacağı istehsal edir, ballistik mühafizə layihələri hazırlayır və həyata keçirir, eləcə də öz müəssisələrində kosmik raketləri işləyib hazırlayır.

Dövlətimizin başçısı Pakistan İslam Respublikasının pavilyonları ilə də tanış oldu. Bildirildi ki, ölkəmizlə hərbi əməkdaşlıq edən Pakistanda istehsal olunan hərbi məhsullar hərbi sənaye kompleksinin bütün istiqamətlərini əhatə edir. Bildirildi ki, ”Pakistan Ordnance Factories” (POF) şirkəti beynəlxalq standartlara uyğun geniş çeşiddə silah-sursat istehsal edən ən böyük dövlət müdafiə sənayesi kompleksidir. Pakistan Silahlı Qüvvələrinin və hüquq-mühafizə orqanlarının aparıcı təchizatçısı olmaqla yanaşı, POF dünyanın bir çox ölkəsinə məhsul ixrac edir. POF-un törəmə şirkətləri məhsullarına görə yüksək nüfuza malikdir. ”Pakistan Ordnance Factories” şirkəti ISO-9001, ISO-14001, ISO-17025 v? OHSAS 18001 kimi beynəlxalq keyfiyyət sertifikatlarını əldə edib.

Qlobal Sənaye və Müdafiə Həlləri (GIDS) şirkəti çoxşaxəli hərbi tətbiqlər üçün məhsullar təklif etməklə, ölkənin ən böyük müdafiə istehsalat bölmələrini, əsas tədqiqat və inkişaf fəaliyyətlərinin mərkəzini təmsil edən Pakistanın dövlətə məxsus ilk müdafiə konqlomeratıdır. GIDS şirkəti tədqiqat və inkişaf fəaliyyətlərinə böyük məbləğdə sərmayə yatırır, Pakistanı yüksək texnologiya sahələrində aparıcı investor edir.

Türkiyənin pilotsuz uçuş aparatı istehsalçısı olan ”Lentatek” pilotsuz sistemlər sahəsində uğurlar əldə etmiş şirkətlərdən biridir. Dövlətimizin başçısına şirkətin istehsalı olan pilotsuz uçuş aparatları, hidrogen və yanacaq texnologiyaları, kosmik texnologiyalar və digər istehsalat sahələri barədə məlumat verildi.

”Dearsan” gəmiqayırma və gəmi təmiri zavodu inşa edildiyi 1980-ci ildən Türkiyənin ən mühüm müəssisələri arasındadır. ”Dearsan” dəstək gəmisi, korvet (gözətçi) tipli gəmilər, patrul gəmiləri, çevik hərəkət qayıqları, desant gəmiləri, hidroqrafiya və okeanoqrafiya elmi tədqiqat gəmiləri, minaaxtaran gəmilər, özü idarəolunan qayıqlar, mülki nəqliyyat gəmiləri və həmçinin gəmiqayırma zavodunun tikintisi və ya modernləşdirilməsi, dəniz su sərhədlərinin mühafizə sistemləri, sursat istehsalı zavodu kimi müxtəlif mürəkkəb hərbi platformaların tikintisi üzrə ixtisaslaşıb.

Dövlətimizin başçısı İspaniyanın sərgidəki pavilyonu ilə tanış oldu. Pavilyonda bu ölkəni ”Indra” şirkəti təmsil edir. Şirkət dünyanın aparıcı mühəndislik şirkətlərindən biridir və rəqəmsal sənayedə liderdir. Radar, elektron müdafiə, idarəetmə və kommunikasiya texnologiyaları üzrə ixtisaslaşmış şirkət öz sistemlərində süni intellekt və virtual reallıqdan istifadə edir. ”Indra” şirkəti Avropanın ən böyük və ən qabaqcıl müdafiə proqramı olan FCAS-ın İspaniyadakı milli sənaye koordinatorudur.

Maşınqayırma və kimya sənayesi müəssisəsi yüksək texnologiya və təcrübəyə üstünlük verən Türkiyənin müdafiə sənayesində lider qurumlardan biridir. Müəssisənin məhsulları yüksək keyfiyyəti ilə seçilir. Bu müəssisə müştərilərə hərbi sursatlar - raketlər, silahlar, partlayıcı maddələr, barıt, pirotexnika və qaz maskaları kimi geniş çeşiddə məhsullar təklif edir.

”Turkish Aerospace” sabit və hərəkətli hava platformalarından pilotsuz uçuş aparatı və peyklərə qədər inteqrasiya olunmuş aerokosmik sistemlərin dizaynı, işlənib hazırlanması, müasirləşdirilməsi, istehsalı, inteqrasiyası və istifadə dövründə dəstək sahəsində Türkiyənin texnologiya mərkəzidir. Aerokosmik və müdafiə sahəsində ən yaxşı yüz qlobal şirkət arasında yer alan ”Turkish Aerospace” tərəfindən dizayn və istehsal edilən bütün məhsullar üçün inteqrasiya olunmuş logistika xidməti də göstərilir.

Türkiyənin müdafiə sənayesini sərgidə təmsil edən daha bir şirkət isə ”ASSAN”dır. Şirkət silah və döyüş sursatlarının, o cümlədən onların tərkib hissələrinin, yarımbloklarının, ləvazimatlarının və ehtiyat hissələrinin qabaqcıl texnologiya ilə müasir müəssisələrdə beynəlxalq standartlara uyğun dizaynı, layihələndirilməsi və istehsalı imkanlarına malikdir.

Prezident İlham Əliyev İran İslam Respublikasının pavilyonuna da baxdı. Qeyd olundu ki, İran Aviasiya Sənaye Təşkilatı (IAIO) bu ölkənin mülki və hərbi aviasiya sənayesini planlaşdırmaq, nəzarət və idarə etmək məqsədilə 1966-cı ildə yaradılmış dövlət korporasiyasıdır. Şirkət təyyarə və aerokosmik məhsullar istehsal edir.

Pakistan Aeronavtika Kompleksinin stendində təyyarə və aviasiya sistemləri üçün texniki xidmət vasitələri, simulyatorlar və təlim sistemləri nümayiş olunur.

Məlumat verildi ki, Azərbaycanın Müdafiə Sənayesi Nazirliyinin Milli Aerokosmik Agentliyi müdafiə təyinatlı məmulatların - pilotsuz uçuş aparatlarının, kəşfiyyat-patrul maşınlarının, döyüş modullarının, müxtəlif növ simulyasiya sistemlərinin işlənilməsi, ölkəmizin güc strukturlarının tələblərinə uyğun modernləşdirilməsi, seriyalı istehsalın təşkili və ixracı istiqamətində fəaliyyət göstərir.

Azərbaycan Prezidentinə məlumat verildi ki, Türkiyənin ”Aselsan” şirkəti artıq dördüncü dəfədir ”ADEX” sərgisində iştirak edir. Şirkətin təqdim etdiyi məhsullar maraqla qarşılanır. Fəaliyyətinə radiorabitə cihazı ilə başlayan şirkət bu gün müdafiə və təhlükəsizlik sahəsində 500-dən çox adda məhsul istehsal edir.

İsrailin milli pavilyonlarında nümayiş edilən eksponatlarla tanış olan Prezident İlham Əliyevin diqqətinə çatdırıldı ki, müdafiə, aerokosmik və kommersiya bazarlarında lider olan İsrail Aerokosmik Sənayesi milli müdafiə və təhlükəsizlik problemlərini həll etmək üçün ən müasir texnologiyadan və onilliklər ərzində sübut edilmiş döyüş təcrübəsindən istifadə edir.

”RAFAEL Qabaqcıl Müdafiə Sistemləri” MMC İsraildə 70 ildən artıqdır ki, hava, quru, dəniz və kosmos üçün kibertəhlükəsizlik sistemlərinin yaradılması ilə məşğuldur. Şirkət təyyarə və aviasiya vasitələri, raket və kosmik qurğular üçün sistem və komplekslər, zirehli döyüş maşınları, radioelektron, peyk, GPS və GSM sistemləri üzrə fəaliyyət göstərir.

Sərgidə İsrailin ”Plasan” şirkəti də öz məhsullarını təqdim edir. Şirkət təkərli və tırtıllı döyüş maşınları üçün geniş çeşiddə robot texnologiyaları üzrə ixtisaslaşıb.

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) də sərgidə fəal iştirak edir. Fəaliyyət illəri ərzində ANAMA ölkə daxilində və xaricində bir sıra layihələr həyata keçirib. Agentlik hazırda işğaldan azad edilən Qarabağda mina və partlamamış hərbi sursatlardan təmizləmə əməliyyatları həyata keçirir.

Dövlətimizin başçısı, həmçinin Qazaxıstanın Sənaye İnfrastrukturunun İnkişafı Nazirliyinin pavilyonu ilə də tanış oldu.

Rusiya Federasiyasını ”ADEX-2022” sərgisində 13 şirkət təmsil edir. ”Rosoboronexport” Rusiyanın müdafiə sahəsi ilə bağlı məhsulların, xidmətlərin və texnologiyaların tam çeşidinin ixracı üzrə yeganə dövlət agentliyidir. Qlobal silah bazarında liderlərdən biri olan ”Rosoboronexport” Rusiyanın bu sahədə məhsul ixracının 85 faizdən çoxunu təşkil edir. Agentlik Rusiyanın müdafiə sənayesi üzrə 700-dən çox müəssisə və təşkilatı ilə əməkdaşlıq edir.

Bolqarıstan Respublikasının pavilyonu ilə tanış olan Prezident İlham Əliyevə məlumat verildi ki, ”Transmobil” şirkəti 1990-cı ildə Sofiya şəhərində yaradılıb. Şirkət yüksəksürətli kinetik sursatların, kumulyativ-termobarik qumbaraatanların, yüksək effektivliyə malik artilleriya sursatlarının və minaatanların istehsalı üzrə fəaliyyət göstərir.

Sərgidə Ukraynanı təmsil edən ”Motor Sich” Açıq Səhmdar Cəmiyyəti hərbi texnika üzrə layihələndirmə, təkmilləşdirmə, istehsal, əsaslı təmir və texniki dəstək sahəsində ixtisaslaşmış çoxşaxəli müəssisədir. ASC-nin istehsal etdiyi məhsullar dünyanın 100-dən çox ölkəsində uğurla istifadə olunur.

Azərbaycan Prezidenti İlham Əliyev Çin Xalq Respublikasının sərgidəki pavilyonunda da oldu. Məlumat verildi ki, bu ölkəni təmsil edən ”CETC International Co. Ltd” ”Çin Elektron Texnologiyalar Qrupu Şirkəti”nin (CETC) beynəlxalq biznes və əməkdaşlıq üzrə əsas platformasıdır. CETC 2021-ci ildə ”Fortune Global 500” sıralamasında 354-cü yerdə qərarlaşıb.

Dövlətimizin başçısı Azərbaycan Müdafiə Sənayesi Nazirliyinin ”AZAD Sistemlər” müəssisəsinin istehsal etdiyi hərbi texnika ilə tanış oldu.

Sonra Prezident İlham Əliyev Bakı Ekspo Mərkəzinin qarşısında nümayiş etdirilən hərbi məhsullara və texnikalara baxdı.

*Qeyd edək ki, ”ADEX” və ”Securex Caspian” sərgiləri üçün geniş işgüzar proqram hazırlanıb. Sərgilərin keçiriləcəyi üç gün ərzində Azərbaycanın işğal olunmuş ərazilərinin minalardan təmizlənməsi, pilotsuz sistemlərinin inkişaf perspektivləri və tətbiq sahələri üzrə, müasir silah sistemləri, sursatlar və onların təyinatı, zirehli döyüş nəqliyyat vasitələrinin müasir döyüş mühitində rolu və digər aktual mövzular üzrə sessiyalar keçiriləcək.*

*Beləliklə, IV Azərbaycan Beynəlxalq Müdafiə ”ADEX” və XIII Beynəlxalq Daxili Təhlükəsizlik, Mühafizə və Xilasetmə ”Securex Caspian” sərgiləri beynəlxalq hərbi-texniki əməkdaşlıq sahəsində ən müasir silahların nümayişi və yeni müqavilələrin bağlanması üçün əla platformaya çevriləcək.*

# Türkiyə Yunanıstanla bağlı beynəlxalq təşkilatlara məktub ünvanlayıb



**Türkiyə Yunanıstanla bağlı beynəlxalq təşkilatlara məktub ünvanlayıb.**

”Report” ”Anadolu”ya istinadən xəbər verir ki, Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlunun imzaladığı məktubda Yunanıstanla Egey dənizindəki mübahisəli məsələlərdən bəhs edilir.

Məktubda Egey dənizində ərazi sularının və milli hava məkanının eni, kontinental şelf və ərazi sularının məhdudlaşdırılması, şərq adalarının qeyri-hərbi statusunun pozulması kimi bir sıra problemlərin olduğu bildirilir. Həmçinin Egey dənizində Yunanıstanın suverenliyinə daxil olmayan adalar və qayaların olduğu vurğulanır.

Sənəd Avropa İttifaqının 25 üzv ölkəsinə, BMT Təhlükəsizlik Şurasının daimi üzvlərinə, NATO-nun baş katibi Yens Stoltenberqə, BMT-nin baş katibi Antonio Quterreşə göndərilib.

Türkiyə hesab edir ki, Egey dənizi ilə bağlı məsələlər iki ölkənin əsas hüquq və qanuni maraqlarının qarşılıqlı tanınması ilə beynəlxalq hüquq çərçivəsində həll edilə bilər.

# Zakir Həsənov ordu generalı Yaşar Güler ilə görüşüb

## Azərbaycanla Türkiyə arasında təhlükəsizlik, hərbi əməkdaşlıq müzakirə olunub



**Sentyabrın 6-da Bakı Ekspo Mərkəzində keçirilən ”ADEX-2022” 4-cü Azərbaycan Beynəlxalq Müdafiə Sərgisi çərçivəsində Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənov Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, ordu generalı Yaşar Güler ilə görüşüb.**

Müdafiə Nazirliyindən “Şərq”ə verilən məlumata görə, görüşdə Azərbaycan ilə Türkiyə arasında regional təhlükəsizlik, hərbi, hərbi-texniki, hərbi təhsil və hərbi tibb sahələrində əməkdaşlıq, qarşılıqlı səfərlərinin təşkili, eləcə də maraq doğuran digər məsələlər müzakirə olunub.

Tərəflər birgə hərbi təlimlərdə texnoloji innovasiyalardan istifadə edilməsinin əhəmiyyətini xüsusi vurğulayıb.

# Şərti hədəflər döyüş təyyarələri ilə məhv edildi

## Təlimin planına uyğun olaraq əməliyyat uçuşları yerinə yetirilib



**”TurAz Qartalı - 2022” birgə taktiki-uçuş təlimində döyüş təyyarələri ilə ətrafı tanıma uçuşları icra edilib. Sonra təlimin planına uyğun olaraq əməliyyat uçuşları yerinə yetirilib.**

Uçuşlardan öncə əməliyyatın planı, hava şəraiti və digər texniki məsələlərlə bağlı brifinq təqdim edilib.

Plana əsasən radioelektron mübarizə (REM) vasitələrindən istifadə edərək aldadıcı manevrlərlə şərti düşmənin hava hücumundan müdafiə vasitələrindən yayınmaq və təyin olunan yerüstü hədəflərin məhv edilməsi üzrə tapşırıqlar yerinə yetirilib.

Yüksək peşəkarlıq nümayiş etdirən Azərbaycan və Türkiyənin hərbi pilotları qarşıya qoyulan tapşırıqları uğurla icra ediblər.

# “Liz Truss bizim haqqımızda yaxşı heç nə deməyib"

## Kreml Böyük Britaniyanın yeni baş nazirinə güvənmir



**Kremlin sözçüsü Dmitri Peskov çərşənbə axşamı ”RBC” telekanalına müsahibə verib.**

“Şərq” ”TASS”a istinadən xəbər verir ki, D.Peskov müsahibə zamanı Böyük Britaniyanın yeni Baş naziri Liz Trussun əvvəllər Rusiyaya qarşı sərt fikirlər səsləndirdiyini deyib: ”Buna baxmayaraq, rəsmi Moskva Britaniya ilə münasibətlərinin ”pisləşməyəcəyinə” ümid edir . Onun sözlərinə görə, yeni baş naziri xarici işlər naziri və partiya lideri vəzifəsinə namizəd olduğu zaman verdiyi bəyanatlarla qiymətləndirmək olar: ”O, bizim haqqımızda yaxşı heç nə deməyib. Təəssüflə deyə bilərəm ki, onun bəyanatları kifayət qədər aqressiv, qeyri-dost və qeyri-konstruktiv olub. Vəziyyətin daha da pisləşməsinə gəlincə, bunu istisna etmək olmaz. Hazırda rəqiblərimizin gözlənilməzliyini nəzərə alsaq, heç nəyi istisna edə bilmərik”.

**Günəş Mərd**

# Danışıqlar gündəmdə deyil

## Putinlə Zelenskinin görüşü gözlənilmir



**Rusiya Prezidenti Vladimir Putin və Ukrayna Prezidenti Volodimir Zelenski arasında görüş tərəflərin vəziyyəti nizamlamaq üçün razılığa gəlməsi şərti ilə mümkün olacaq. Lakin hələ aktuallıq daşımır.**

“Şərq” xəbər verir ki, bu barədə Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov çərşənbə axşamı Şərq İqtisadi Forumu çərçivəsində ”İzvestiya” qəzetinə müsahibəsində məlumat verib.

“Putin-Zelenski görüşünə gəlincə, heç nə dəyişməyib. Görüş xatirinə görüş heç kimə lazım deyil. Belə bir görüşün baş tutması və belə bir görüş ideyasının gündəmdə olması üçün ən yüksək səviyyədə təsdiq oluna biləcək razılaşmaların təməlinin qurulması istiqamətində müəyyən işlər görülməlidir. Amma bu hələ gündəmdə deyil”-, D.Peskov deyib.

**Aygün Tahir**

# Azərbaycan bütün riskləri neytrallaşdırıb

## Ermənistan sülh müqaviləsini Bakının tələbinə uyğun imzalamalıdır



### Bu halda İrəvan regional kommunikasiyalara qoşulacaq

İsmayıl Qocayev

**Ermənistan xalqı 30 il boyunca öz hakimiyyətinin yürütdüyü yanlış işğalçılıq siyasətinin bədəlini ödəyib və tənəzzülə məhkum olub. Əgər İrəvan yenidən sülh müqaviləsini uzadarsa, prosesi ləngitməyə çalışarsa, yenə də ilk növbədə itirən özləri olacaq.**

Çünki Azərbaycanın strategiyası, yolu bəllidir. Düzdür, Nikol Paşinyanın dilindən sülh müqaviləsi haqda sözlər eşidilir, ancaq dəfələrlə sübut olunub ki, Ermənistan tərəfinə son ana qədər güvənmək olmaz. Amma fakt faktlığında qalır ki, Ermənistanın başqa yolu da yoxdur. Çünki Azərbaycan yetərincə güclüdür və qalib tərəfdir.

**Siyasi şərhçi Aqşin Kərimov "Şərq"ə vurğulayıb ki, Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanması İrəvan administrasiyasının göstərəcəyi siyasi ədəb-ərkandan asılıdır. Analitikə görə, Azərbaycan sülh üçün şərtləri təqdim edib:** "Azərbaycanın sülh konsepsiyası erməni fantaziyalarındakı ərazi iddialarının üzərindən qalın bir xətt çəkən diktəedici bəyandır və gedişatı həmin istiqamətlərin hansı formada təzahür edəcəyini müəyyənləşdirəcək. Ermənistan sülh müqaviləsini Azərbaycanın tələbləri əsasında imzalasa, onda İrəvan regional kommunikasiyalara qoşulacaq. Özünü dalandan çıxararaq firəvanlığa qovuşacaq. Yox, Ermənistan Bakının jestlərini vaxtı yubadıb toparlanmaq üçün istifadə etsə, onda başının ağrısı onun vahid orqanizm kimi ölümünə gətirib çıxaracaq. Ermənistan onsuz da Azərbaycana məğlubiyyətinin acısından qıvrılır. Lakin ermənilərin ərazilərə dair əsatirləri hələ də qalmaqdadır, bu instinktiv fitnə isə revanşizm üçün mayak rolunu oynayır".

**Ekspert qeyd edib ki, Azərbaycan risklərin neytrallaşdırılması üçün əhəmiyyətli tədbirlər görür:** "Azərbaycan müdafiə qabiliyyətini yeni geosiyasi reallıqlara uyğunlaşdırır. Potensialını regiondakı istənilən hərbi-siyasi təxribatı, radikal ideologiyaları zərərsizləşdirmək vasitəsinə çevirməkdə davam edir. Erməni siyasi elitası və hərbi komandanlığı Azərbaycanın hərbi qüdrətini düzgün dəyərləndirməlidir. Revanşizm və ya onun ekvivalentində bir ideyalar toplusu istehsal etməkdənsə, özünü praqmatik gündəliyə kökləməlidir. Bu həm Azərbaycanın, həm onun strateji müttəfiqi Türkiyənin maraq dairəsində qırmızı xətlə keçir. Bakı-Ankara müştərək maraqlarının miqyası isə Ermənistanın tutacağı mövqe ilə düz mütənasib şəkildə inkişaf edəcək. Yəni İrəvan çox atlanıb-düşsə, Bakı Ankaranın dəstəyi ilə özünün maraq radiusunun tətbiqini genişləndirəcək.

Azərbaycanın çevrəsi tarixi ərazilərə baxış bucağını özündə cəmləşdirir. Dünyanın və regionun əsas güclərindən biri olan Rusiya da Ermənistanın ikibaşlı mövqeyindən usandığından Bakıya həlledici siyasi dəstək verir. Bu mənada Azərbaycanın öz tarixi əraziləri olan Zəngəzura, Göyçəyə, İrəvana mənəvi himayəçiliyi hüquqi nəticələrə gətirib çıxara bilər - ərazi iddialarına qarşı adekvat cavab kimi. Azərbaycanın Zəngəzuru, İrəvanı, Göyçəni götürərək tarixi gerçəkliyi hüquqi əsasa söykətmək üçün kifayət qədər resursu mövcuddur. Azərbaycanın leksikonuna Qərbi azərbaycanlılar adı ilə düşən soydaşlarımızın tarixi ərazilərə qayıdıb orada yaşamaq hüququ var, hesab etmək olar ki, Bakı sülh gündəliyinin pərdəarxasında həmin məqamı da mümkün razılaşmaların tərkib hissəsi kimi masaya qoyur".

**A.Kərimov bəyan edib ki, Ermənistan bundan imtina edən hərəkətlər etsə, onda Azərbaycan hərbi variantla istədiyini təmin edəcək:** "Azərbaycan Ermənistanla sərhədin bütün zolağından İrəvanı administrativ bir quruluşa endirmək potensialına malikdir. Ermənistan və ona havadar çıxmaq istəyənlər Azərbaycanın gücünü düzgün ölçməlidir. Çünki Prezident İlham Əliyev dediklərini edir və nəticəni bütün dünyaya göstərir. Sərhədlərin delimitasiyası mövzusunda da 1920-ci və ondan əvvəlki illərin xəritəsinə boşuna istinad edilmir. Azərbaycan isə istəyir ki, bu prosesi sülhyaratma mexanizmləri yönləndirsin. Sülh təşəbbüsünün qarşısına keçmək isə Azərbaycana hərbi senarilər üçün zəminlər verir. Bakını həmin ərazilərdəki mümkün hərbi əməliyyatların xəritəsini cızmaq üzərində düşünməyə vadar edir".



**Çexiyada yaşayan Sərkər adlı azərbaycanlı gənc çayda boğulub.**

**Hadisə 28 avqustda baş verib. O, evli olduğu Helena adlı xanımla gəzintiyə çıxıb və İtaliyanın Komo gölündə qayıq kirayələyib.**

# İtaliyada azərbaycanlı gənc çayda boğulub

## Helena həyat yoldaşının nəşini Azərbaycana aparmaq üçün yardım aksiyasına başlayıb



### Diasporamız həmyerlimizin nəşinin Vətənə göndərilməsinə yardım etməlidir

Sərkər suya yıxılan qızı xilas etmək üçün onun arxasınca suya tullanıb. O, qızı xilas etsə də, özü suda boğulub. Hazırda azərbaycanlı gəncin nəşi İtaliyada saxlanılır, maliyyə sıxıntılarına görə Azərbaycana gətirilə bilmir.

Helena həyat yoldaşının nəşini Azərbaycana aparmaq üçün yardım aksiyasına başlayıb. Qeyd edək ki, cütlük bir neçə ay bundan öncə ailə həyatı qurubmuş.

**Miqrasiya məsələləri üzrə ekspert Azər Allahverənov "Şərq"ə açıqlamasında deyib ki, xaricdə vəfat edən Azərbaycan vətəndaşlarının nəşinin ölkəyə gətirilməsi tez-tez problemə çevrilir:** "Hansısa səbəbdən xarici ölkədə dünyasını dəyişən insanların cəsədinin ölkəyə gətirilməsi adətən onun ailəsi və ya yaxınlarının iştirakı ilə baş tutur. Rusiyada yaşayan azərbaycanlıların sayı çox olduğu üçün orada dünyasını dəyişən azərbaycanlıların nəşinin ölkəyə gətirilməsi hallarına daha çox rast gəlinir. Ailəsinin imkanı olmadıqda orada yaşayan azərbaycanlılar, mərhumun dost-tanışları öz aralarında pul yığıb onun nəşinin ölkəyə gətirilməsinə nail olurlar. Bəzi hallarda ölən şəxsin Azərbaycandakı qohumları, yaxınları özləri gedib meyiti gətirirlər. Bu kimi imkanları olmayan insanlar isə xaricdəki diaspora təşkilatlarından kömək istəyirlər. Bu bir öhdəlik kimi olmasa da, bir çox ölkələrdəki diaspora nümayəndələrimiz vəfat edən həmyerlimizin nəşinin Vətənə göndərilməsinə yaxından köməklik edirlər".

*Dövlətin bu istiqamətdə ata biləcəyi addımlara gəldikdə isə A.Allahverənov xaricdəki diplomatik korpusların büdcəsində bu kimi məsələlər üçün hansısa vəsaitin nəzərdə tutulub-tutulmadığından xəbərsiz olduğunu deyib:* "Diplomatik korpusların illik büdcəsindəki vəsaitlərin hansı xərclər üçün nəzərdə tutulduğunu deyə bilmərəm. Səfirliklər adətən sənədləşmə işlərində köməklik edirlər. Bəzi hallarda isə vəfat edən şəxsin dövlət qarşısında hansısa xidmətləri nəzərə alınaraq onun cəsədi aviakampaniya çərçivəsində ölkəyə gətirilir".

**Şəymən**



# Atəş əmri Kremldən gəlir

## Ermənistanın indiki müxalifəti Rusiyadan idarə olunur

**Son günlər Azərbaycan-Ermənistan dövlət sərhədində növbəti gərginlik yaşanır. Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan Ordusunun Kəlbəcər və Laçın rayonunda yerləşən mövqeləri intensiv atəşə tutulur. Ermənistanın təxribat cəhdlərinə rəğmən, bütün istiqamətlərdə bölmələrimiz tərəfindən adekvat cavab tədbirləri görülməkdədir.**

Müdafiə Nazirliyindən bildirilib ki, son günlər sərhəddə baş verən gərginliyə görə bütün məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür. Ekspertlərin fikrincə, avqustun 31-də Brüsseldə baş tutmuş görüşdə əldə olunan razılaşmadan və Baş nazir Nikol Paşinyan hökumətinin sülh prosesində maraqlı davranmasından sonra sərhəddə baş verən təxribatlar təsadüfi deyil. Siyasi şərhçilərin qənaətincə, atəşkəsin pozulması ilə yanaşı, Ermənistanda müxalifətin hökumətə qarşı etiraz aksiyaları və qondarma rejimin təmsilçilərinin xarici ölkələrə ayaq açması müəyyən kənar güclərin Cənubi Qafqaz regionunda gərginlikdə maraqlı olmasından xəbər verir.

> Paşinyan hökuməti erməni ordusuna, güc strukturlarına nəzarət edə bilmir

**Azərbaycan Milli İstiqlal Partiyasının sədri Arzuxan Əlizadə "Şərq"ə bildirib ki, 30 il ərzində torpaqlarımızın işğalda qalmasında maraqlı olan güclər indi də tərəflər arasında qarşıdurmanın yaranmasına çalışır. Partiya rəhbəri vurğulayıb ki, Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması üçün uzun illər vasitəçilik missiyasını icra etmiş ATƏT-in Minsk qrupunun həmsədrləri arasında sanki rəqabət başlayıb:** "Halbuki, üç həmsədr ölkənin heç biri 30 il ərzində münaqişənin həlli istiqamətində irəliyə doğru addım atmayıblar. Əksinə, öz yanaşmaları ilə ilə Ermənistanın təcavüzkar siyasətinə dəstək verərək, Azərbaycan torpaqlarının işğalda qalmasına şərait yaratmışdılar. 44 günlük müharibədən bu yana Rusiya, ABŞ və Fransa vasitəçilik təşəbbüsləri ilə çıxış edirlər. Ötən dövr ərzində Azərbaycan və Ermənistan rəhbərliyi arasında 4 dəfə Brüsseldə, 3 dəfə isə Moskvada görüş baş tutub. Bundan əlavə hökumətlərarası təmaslar, XİN rəhbərlərinin danışıqları da reallaşıb. Ancaq müharibədən iki il ötsə də, hələ Ermənistan və vasitəçi Rusiya üçtərəfli anlaşma ilə üzərlərinə götürdükləri öhdəliklərə əməl etmir. Sərhədlərin demarkasiya və delimitasiyası da nəticələnməyib. İkitərəfli komissiyaların fəaliyyətində də real və ciddi irəliləyişlər yoxdur".

**A.Əlizadə qeyd edib ki, Ermənistan-Azərbaycan sərhədində atəşkəsin pozulması məhz Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin təşəbbüsü ilə keçirilən Brüssel görüşündən sonraya təsadüf edir:** "Ermənistanda etirazlar başladı, qondarma rejimin "rəsmiləri" dərhal hərəkətə keçdilər. ABŞ və Fransa səfirləri ümumi prosesə qarşı dirəniş sərgilədilər. Quldur David Babayanın ABŞ Konqresində çıxışı planlaşdırıldı. Qarabağdakı qondarma rejimə növbəti dəfə "minalardan təmizlənmə" adı altında maliyyə yardımı edilməsinə qərar verildi. Birmənalı görünür ki, ABŞ, Avropa Birliyinin bəzi ölkələri və Rusiya Cənubi Qafqaz bölgəsində dayanıqlı sülhün imzalanmasında maraqlı deyillər. Gərginliyin qalması həmin dövlətlərin regiona nüfuz etmək imkanlarını qoruyub saxlayır.

Burada bir məqam da aydın olur ki, Paşinyan hökuməti erməni ordusuna, güc strukturlarına nəzarət etmək iqtidarında deyil. Ermənistanın indiki müxalifəti birbaşa Kremldən idarə olunur. Ona görə də kənar güclərin "gözəgörünməyən" müdaxilələri ilə sərhəddə ardıcıl təxribatlar baş verir. Məqsəd sülh prosesində hansısa irəliləyişə mane olmaq, mövcud razılaşmaların həyata keçməsinə imkan yaratmamaqdır. Lakin rəsmi Bakı əvvəl-axır istəyinə nail olacaq. Azərbaycan öz güclü müttəfiqi Türkiyə ilə bölgədə söz sahibidir. Azərbaycan hərbi gücünü nümayiş etdirdikcə, problemlərin həllinə tədricən nail olur".

**İsmayıl Qocayev**

# Ermənistan tərəfi demək olar ki, hər gün atəşkəsi pozur

## Vaxtı çatanda növbəti "Qisas" əməliyyatına start veriləcək



**Son günlər Azərbaycan-Ermənistan dövlət sərhədində Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən Azərbaycan Ordusunun mövqeləri intensiv atəşə tutulub. Bununla bağlı Azərbaycan Müdafiə Nazirliyi məlumat yayıb.**

Xəbərdə qeyd edilib ki, sentyabrın 5-i axşam saatlarında Ermənistan silahlı qüvvələrinin bölmələri dövlət sərhədinin Basarkeçər rayonunun Yuxarı Şorca və Əzizli yaşayış məntəqələri istiqamətində yerləşən mövqelərindən Kəlbəcər rayonunun Zivel və Yellicə yaşayış məntəqələri istiqamətində yerləşən Ordumuzun mövqelərini müxtəlif növ atıcı silahlardan atəşə tutub.

**Vəziyyəti dəyərləndirən ehtiyatda olan polkovnik Şair Ramaldanov "Şərq"ə bildirib ki, istər danışıqlar olsun, istərsə də hansısa sənədlər imzalansın, Ermənistan üçün heç fərqi yoxdur. Azərbaycanın İkinci Qarabağ savaşında qələbə qazanmasından iki ilə yaxın vaxt keçir. Ortada üçtərəfli bəyanat var. Buna rəğmən sərhəddə erməni təxribatlarının sayı azalmır:** "Son həftədə atəşkəsin pozulmadığı bir gün belə yoxdur. Prinsipcə, bu, Azərbaycan Ordusu üçün təəccüblü deyil. Biz indiyə kimi hər şeyə öz gücümüz hesabına nail olmuşuq. Ermənistanı da hazırkı nəticələrə məcburən gətirib çıxarmışıq. Onlar istər sərhədlərin delimitasiya-demarkasiyası, istərsə də sülh müqaviləsi işinin başladılmasına məcbur olublar. Azərbaycanın mövqeyi haqlı mövqedir. Rəsmi Bakı üçtərəfli bəyannamənin tələblərinə uyğun hərəkət edir. Ermənistan isə ona əks bir mövqe tutur.

Bütün prosesi əngəlləməyə, uzatmağa çalışır. Atəşkəsin pozulması da məhz bu məqsədlə həyata keçirilir. Son zamanlar Azərbaycanın diplomatiya sahəsindəki uğurları Ermənistan hakimiyyətində qıcıq yaradır. Beləcə orda müxalifət, radikal qüvvələr aktivləşir. Proseslərdə bu da gözlənilən idi. Azərbaycan Ordusu indi də istənilən təxribatın qarşısını almağa hazırdır.

Ona görə də lazım gəldikdə, qərar qəbul olunduqda "Qisas" əməliyyatı kimi növbəti əməliyyatları da həyata keçirəcək. Sərhəddə baş verəcək istənilən təxribata məqsədindən asılı olaraq Azərbaycan tərəfi adekvat cavab verəcək.

Rəsmi Bakı artıq Qarabağda Azərbaycan maraqlarının təmin edilməsinə start verib. Bunun davamı da olacaq".

**Günəş Mərd**

# Azərbaycanda kəşfiyyat və döyüş PUA-ları istehsal olunub



**Müdafiə Sənayesi Nazirliyi Bakıda keçirilən "ADEX 2022" dördüncü Azərbaycan Beynəlxalq müdafiə sərgisində kəşfiyyat və döyüş pilotsuz uçuş aparatlarını (PUA) təqdim edib.**

"Şərq"in məlumatına görə, sərgidə "Turaz" PUA nümayiş etdirilib. Bu aparat həm quru, həm də dəniz üzərində hərəkət etmək iqtidarındadır. Onun uçuşu üçün müvafiq infrastruktur tələb olunmur. PUA üç kilometr yüksəklikdə kəşfiyyat əməliyytaları keçirə bilir, uçuş sürəti 110 kilometr/saat, uçuş müddəti 2-3 saat təşkil edir.

"Zərbə" PUA həm kəşfiyyat apara, həm də zərbələr endirə bilər. PUA-nın səmərəli funksiya radiusu 10-15 kilometr, döyüş başlıqlarının çəkisi 2,5 kiloqram təşkil edir. Aparatın uçuş sürəti 200 kilometr/saata çata bilər.

Sərgidə, həmçinin "Tilt Rotor" pilotsuz uçuş aparatı təqdim olunub. O, həm təchizat, həm də kəşfiyyat funksiyalarını yerinə yetirə bilir. "Tilt Rotor" istənilən səth üzərində uçuş-enişi yerinə yetirə bilər.

Digər təqdim olunan yerli istehsal PUA olan "Ovçu" havadan minalarla zərbələr endirmək üçün nəzərdə tutulub. Aparat bir dəfəyə 7 kiloqram çəkidə dörd mina daşımaq iqtidarındadır. Həmçinin, PUA radiodalğaları qarşısına ala bilir ki, bu da onun düşmən tərəfindən müəyyən olunmasına maneə törədir. PUA-nın uçuş sürəti 70-80 kilometr/saat, uçuş məsafəsi 20 kilometr təşkil edir.

# Azərbaycan jurnalistlərinin VIII qurultayı keçiriləcək

## Əflatun Amaşov qurultayın sentyabrın 24-də təşkil olunmasını təklif edib




**Dünən Azərbaycan Mətbuat Şurasının İdarə Heyətinin iclası keçirilib.**

**MŞ sədri Əflatun Amaşov bildirib ki, Şuranın Nizamnaməsinə əsasən hər dörd ildən bir Azərbaycan jurnalistlərinin qurultayı keçirilməli, İdarə Heyəti yenidən seçilməlidir.**

Bundan başqa MŞ-nin Nəzarət-Təftiş Komissiyanın tərkibi də yenilənməlidir. Prosedur qaydalara müvafiq olaraq ali məclisin düzənlənməsi üçün qurultaya hazırlıq üzrə Təşkilat Komitəsi yaradılmalıdır. "İndiyədək Azərbaycan jurnalistlərinin yeddi qurultayı keçirilib. Axırıncısı 2018-ci ildə baş tutub. Artıq vaxtdır. Bu, sayca səkkizinci ali məclisimiz olacaq. Əvvəlki illərin təcrübəsini nəzərə alaraq deyə bilərəm ki, qurultaya hazırlıq üçün formalaşdırılacaq Təşkilat Komitəsinin üzvləri bir qayda olaraq İdarə Heyətinin üzvlərindən təşkil edilir. Başqa təklif yoxdursa, yenə həmin qaydada olsun. Fikrimcə, birlikdə prosesə effektiv hazırlığı reallaşdıra biləcəyik", - deyən Ə.Amaşov onu da vurğulayıb ki, Azərbaycan jurnalistlərinin VIII qurultayının təşkili məqsədilə Mətbuat Şurasına üzv təşkilatlarla müvafiq iş aparılmalıdır.

Üzv təşkilatlar qurultayda iştirak edəcək nümayəndəsinin və nümayəndələrinin adlarını TK-ya təqdim etməlidirlər. Bundan başqa onlar MŞ-nin İdarə Heyətində görmək istədikləri şəxslərin adlarını da bildirməlidirlər. Hər iki Nizamnamə prosedurunun tətbiqi üçün artıq anketlər hazırlanıb və onlar Mətbuat Şurasının presscouncil.az saytında "Azərbaycan jurnalistlərinin VIII qurultayı" adlı bannerdə yerləşdirilib. Şuranın üzvləri ora daxil olaraq hər iki anketi endirə bilərlər. Anketlər doldurulub təşkilatın rəhbərinin imzası və möhürlə təsdiqləndikdən sonra skan edilib Şuranın info@presscouncil.az elektron ünvanına göndərilməlidir. Anketlər qeyd edilən prosedur yerinə yetirilməklə MŞ-yə şəxsən də çatdırıla bilər.

Ə.Amaşov qurultaya qədər TK-nın fəaliyyəti, eləcə də ali məclislə ələqədar məsələlərə dair cəmiyyətə əlavə məlumatların veriləcəyini də diqqətə çatdırıb. MŞ sədri çıxışında həmçinin qurultayın sentyabrın 24-də təşkil olunmasını təklif edib.

MŞ İdarə Heyətinin üzvləri çıxışlarında Azərbaycan jurnalistlərinin indiyədək keçirilmiş qurultaylarının ölkənin ictimai həyatında mühüm əlamətdar hadisələr kimi yadda qaldığını vurğulayıblar. Onlar bu ənənənin davamlılığı üçün səkkizinci ali məclisə hazırlıq işlərinin də yüksək səviyyədə görülməsinin vacibliyini önə çəkiblər.

İclasda həmçinin qurultayın keçirilmə yeri, iştirak qaydası ilə bağlı bir sıra məsələlər müzakirə olunub, yekdil fikrə gəlinib. Qərara alınıb ki, Azərbaycan jurnalistlərinin VIII qurultayının keçirilməsi üzrə Təşkilat Komitəsi yaxın günlərdə bunlarla ələqədar ictimaiyyətə ətraflı məlumat versin.

**Aygün**

# Putin Paşinyana tapşırıqlar verəcək

## Rusiya prezidenti bütün prosesin öz nəzarətində olmasını istəyir

**Rusiya Prezidenti Vladimir Putin Ermənistanın Baş naziri Nikol Paşinyanla görüşəcək. Bu barədə Rusiya Prezidentinin beynəlxalq məsələlər üzrə köməkçisi Yuri Uşakov məlumat verib.**



Xəbərə görə, tərəflər görüşdə Azərbaycan-Rusiya-Ermənistan arasında imzalanan üçtərəfli bəyanatların icrasını müzakirə edəcəklər: "Rusiya üç ölkə lideri arasında imzalanmış üçtərəfli bəyanatlar əsasında Ermənistan və Azərbaycan arasında münasibətlərin normallaşmasına hərtərəfli yardımını davam etdirir".

**Gözlənilən görüşü "Şərq"ə şərh edən millət vəkili Asim Mollazadə bildirib ki, inidiki məqamda Paşinyandan sadəcə olaraq sülh sazişi ilə bağlı düzgün qərarlar qəbul etmək, üçtərəfli bəyannamə ilə üzərinə düşən bütün öhdəlikləri yerinə yetirmək gözlənilir:**

"Bu da hazırda Ermənistanın yeganə xilas yoludur. Fikrimcə, indi Rusiya üçün ən maraqlı məqam kommunikasiyaların açılmasıdır.

Rəsmi Moskva bu istiqamətdə Ermənistanın addım atmasına etiraz etməyəcək. Lakin başqa məsələlərdə Putin bütün prosesin öz nəzarətində olmasını istəyir. Buna görə də o, digər məsələlərdə Paşinyanı atacağı addımlarla bağlı yönləndirəcək".

**Günəş Mərd**



### Ağalı kəndinin növbəti sakinləri doğma torpaqlarına yola düşməyə hazırlaşır

**Zəngilanın Ağalı kəndinə əhalinin qayıdışı prosesi davam edir.**

Trend-in əməkdaşı Ağalıya yola düşəcək bir ailənin köç hazırlığı prosesi ilə tanış olub.

Sakinlər Zəngilana yola düşəcəklərinə görə çox sevincli olduqlarını bildiriblər. Eyni zamanda, doğma torpaqlarının azad olunmasına və bu gün orada yaradılan şəraitə görə Prezident İlham Əliyevə, Ordumuza minnətdarlıqlarını qeyd ediblər. Şəhidlərimizə Allahdan rəhmət, qazilərə isə şəfa diləyiblər.

# Yeni tədris ilinin sonunadək formaların dəyişdirilməsi məcburi deyil

## Nazirlik narazılıqlara münasibət bildirib

**Elm və Təhsil Nazirliyi məktəblilər üçün yeni geyim formalarının alınması ilə bağlı valideynlərin narazılıqlara münasibət bildirib.**




Nazirlikdən "Report"un sorğusuna cavab olaraq qeyd olunub ki, yeni tədris ilinin sonunadək formaların dəyişdirilməsi məcburi deyil.

Bildirilib ki, hazırkı geyim formaları 2022/2023-cü tədris ilinin sonunadək istifadə edilə bilər: "Bu, Nazirlər Kabinetinin 17 mart 2022-ci il tarixli 96 nömrəli qərarında da yer alıb".

Xatırladaq ki, sosial şəbəkələrdə bəzi məktəblərdə yeni geyim formasının məcburiliyi barədə məlumatlar yayılıb.

Qeyd edək ki, yeni formaların satışına avqustun 17-dən başlanıb. Bakı Tikiş Evi hər gün təxminən 500-600 yeni məktəbli formasının tikildiyini və bir o qədər də geyimin satıldığını açıqlayıb. Formalar BTE-nin mağazaları ilə yanaşı "Bravo" marketdə də satışa çıxarılır. Yeni formaların istehsalına gec başlandığı üçün tədris ilinin başlanmasına qədər geyimlərin çatdırmaqda çətinliklər yaranıb. Bu səbəbdən bu il yuxarı siniflər üçün məktəbli formaları tikilməyəcək. Bu il Bakı Tikiş Evi yalnız ibtidai sinifləri təmin etmək gücündədir.

Hazırda Bakı Tikiş Evinin qarşısında və məktəbli forması satılan "Bravo" mağazalarının önündə uzun növbə yaranıb.

# Kreml nüvə silahına güvənir

## Ukrayna savaşına görə Rusiyanın dağılması hələ müzakirə mövzusu deyil

**Təqaüddə olan amerikalı general-leytenant, ABŞ-ın Avropadakı qüvvələrinin keçmiş komandanı Ben Hodces "Twitter"də bildirib ki, Rusiya Federasiyasının sonunun başlanğıcını izləyirik: "Buna hazır olmaq lazımdır. Biz SSRİ-nin dağılmasına hazır deyildik".**



*Mövzu ilə bağlı "Şərq"ə danışan siyasi şərhçi, jurnalist Fuad Abbasov qeyd edib ki, ABŞ generalının açıqlamasında əlbəttə ki, həqiqət var:* "Lakin nəzərə almaq lazımdır ki, Rusiyanın dağılmağa başlaması onun dünya iqtisadiyyatından tamamilə çıxarılması, enerji resurslarının Avropaya ixrac edilməsinin dayandırılması və federasiyanın yerində çoxsaylı kiçik respublikaların yaradılması kimi məsələlərə hazırlıqsız nail olmaq mümkün deyil. SSRİ-nin dağılması da birdən-birə olmayıb. ABŞ Prezidenti Ronald Reyqan hətta ondan əvvəlki dövlət rəhbərləri də SSRİ-nin dağılması üçün "dəridən, qabıqdan çıxırdılar".

Nəticə etibarilə Qorbaçovun R.Reyqanla görüşməsindən, yenidənqurmanın, milli mübarizələrin, millətlərarası münaqişələrin başlanmasından sonra SSRİ-nin süqutunun şahidi olduq. Amma Rusiyanın Ukrayna savaşına görə dağılması müzakirə mövzusu deyil. Əks halda hazırlıqların şahidi olmalı idik.

Rusiya Federasiyasının nüvə silahını istifadə etmədən dağılmaq niyyəti yoxdur. Bunu Prezident Vladimir Putin bir neçə dəfə bəyan edib.

O, Rusiyanın ərazi bütövlüyünə, suverenliyinə qarşı hər hansı addım atılsa, ölkənin nüvə silahının olduğunu unutmayın, deyərək, dəfələrlə açıqlama verib.

Nüvə silahı Rusiyanın ərazisini, müstəqilliyini qoruyan yeganə vasitədir. Bunu yaddan çıxarmamalıyıq".

**Sücayət Mehti**

# Ürəyin transplantasiyasını təcili edən amillər açıqlanıb



**Ürəyin transplantasiyasını təcili edən amillər açıqlanıb.**

Bu, Nazirlər Kabinetinin "Donor orqanların transplantasiyası metodu ilə müalicə zərurətinin təcililik statusuna dair Meyarlar"ın və "Resipiyentin sağlamlığı üçün təhlükə törədən xəstəliklərin Siyahısı"nın təsdiq edilməsi haqqında qərarında öz əksini tapıb.

Qərara əsasən, ürəyin transplantasiyası metodu ilə müalicə zərurətinin təcililik statusuna dair 18 yaşından yuxarı şəxslər üçün meyarlar aşağıdakılardır:

Veno-arterial ekstrakorporal membran oksigenasiyanın (ECMO) aparılması;

Endovaskulyar olmayan, cərrahi yolla implantasiya olunmuş biventrikulyar dəstək cihazının (Biventricular support device) tətbiq edilməsi;

Qan dövranına mexaniki dəstək cihazının (Mechanical circulatory support device) tətbiq edilməsi.

Ürəyin transplantasiyası metodu ilə müalicə zərurətinin təcililik statusuna dair 18 yaşınadək şəxslər üçün meyarlar aşağıdakılardır:

Davamlı süni tənəffüsün aparılması;

Aortadaxili balon cihazının (Intra-aortic balloon pump) tətbiq edilməsi;

Arterial (Botal) axarından asılı olan kiçik və ya böyük qan dövranı (Ductal dependent pulmonary or systemic circulation). Axarın açıq vəziyyətinin stend və ya prostaqlandin infuziyası ilə təmin edilməsi vəziyyəti;

Hemodinamikaya ciddi təsir göstərən ürəyin anadangəlmə qüsuru, eyni zamanda bir neçə inotrop dərman vasitəsi və ya yüksək dozada tək inotrop dərman vasitəsindən istifadə;

Qan dövranına mexaniki dəstək cihazının (Mechanical circulatory support device) tətbiq edilməsi.

**Günəş**

# Rusiya dünyanı qaz sınağına çəkir

## Artıq Avropanın kiçik şəhərlərində deyil, eləcə də paytaxtlarında soyuq qışa hazırlıq gedir

**"Şimal axını-1" vasitəsilə qaz tədarükü ilə bağlı problemlər Avropa boru kəmərinin işləməsinə mane olan sanksiyaları aradan qaldırana qədər davam edəcək. Bunu Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov deyib. Onun sözlərinə görə, qazın kəmərə vurulmasında problemlər Almaniya və Böyük Britaniya da daxil olmaqla, Qərb dövlətlərinin Rusiyaya tətbiq etdiyi sanksiyalar səbəbindən yaranıb:**




"Qazın vurulması ilə bağlı problemləri yarada biləcək başqa səbəblər yoxdur". Dmitri Peskovun sözlərinə görə, hazırda fəaliyyətdə olan bir aqreqat qalıb: "Sanksiyalar ucbatından boru kəmərinə texniki xidmətin göstərilməsi qeyri-mümkün olub. "Şimal axını-1"-in bütün işi sıradan çıxmağa yaxın olan bir aqreqat üzərində qurulub".

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Moskvanın xəbərdarlığına haqq qazandırıb. Ərdoğan deyib ki, Rusiyaya qarşı Avropanın mövqeyi, sanksiya tətbiq etməsi istər-istəməz Moskvanı da onlara qarşı addım atmağa sövq edib: "Putin əlindəki bütün imkan və alətləri istifadə edir. Bunlardan ən önəmlisi də təbii qazdır. Təəssüf ki, istəməzdik, amma belə bir durum Avropada formalaşıb. Avropa bu qışı çətinliklərlə keçirəcək. Ancaq bizim belə problemimiz yoxdur".

**Millət vəkili Vüqar Bayramov deyib ki, rəsmi Moskvanın qaz təchizatının bərpası üçün irəli sürdüyü şərt Qərbin sanksiyaları ləğv etməsidir.** Deputatın sözlərinə görə, Rusiyaya qarşı 8-ci paket sanksiyaların müzakirə edildiyi bir zamanda Brüsselin Moskvanın bu şərti ilə razılaşacağı inandırıcı görünmür: "Bu isə o anlama gəlir ki, artıq Avropanın kiçik şəhərlərində deyil, eləcə də paytaxtlarında soyuq qışa hazırlıq gedir. Avropa İttifaqını gözləyən tutqun payız və buzlu qış fəsilləri qədim qitə üçün həm də iqtisadi təsirlər ilə müşahidə olunur. Avro tədavül tarixində dollar nisbətən ən ucuz məzənnə ilə təklif olunur. Avropa İttifaqında inflyasiya dərəcəsi avqust ayında 9.1 faizə yüksəlib. Bir ay öncə ittifaq ölkələrində orta qiymət artımları səviyyəsi 8.9 faiz idi. Ötən il isə bu rəqəm cəmi 2.2 faiz idi.

Bununla yanaşı, Avropa İttifaqında iqtisadi artım faizi də azalmaqdadır. 2022-ci il üçün 3.7 faiz artım proqnozlaşdırılan avro zonada ÜDM-nin il ərzində 2.8 faiz böyüyəcəyi gözlənilir. Hətta bu göstəricinin də Avropa üçün "sonuncu dayanacaq" olmayacağını düşünənlər az deyil. İttifaq dövlətlərində illik orta iqtisadi artımın daha az olacağı gözlənilir".

**Parlament üzvünün fikrincə, qlobal sanksiyalar artıq Rusiyanın makroiqtisadi göstəricilərinə təsir göstərməkdədir:** "Şimal qonşumuzda bu ilin ikinci rübündə ÜDM 4.3 faiz azalıb. Rusiya Mərkəzi Bankının proqnozuna görə, üçüncü rübdə sanksiyalara məruz qalan iqtisadiyyat daha 7 faiz kiçiləcək. Bütövlükdə, 2022-ci ildə Rusiya iqtisadiyyatının 4-6 faiz intervalında azalacağı gözlənilir.

*Göründüyü kimi, hər iki tərəf "va-bank" gedişlərə üstünlük verir. Bu qarşıdurmadan itirən dünya iqtisadiyyatındakı yeni və daha ağır iqtisadi böhran isə artıq qapıları döyür".*

**İsmayıl**

# Vardanyanın "Qarabağa köçməsi" piardır

## Milyarderin əsl məqsədi Ermənistanın lideri olmaqdır



*"Vaxtilə qərbpərəst Saakaşvili də oxşar senari ilə rus milyarderi İvanişvili tərəfindən hakimiyyətdən uzaqlaşdırılmışdı"*

**Ruben Vardanyan adlı rusiyalı milyarderin Xankəndinə gəlməsi və Rusiya vətəndaşlığından imtina etməsi son günlərin müzakirə edilən mövzularındandır. Erməni mediasının materiallarından görünür ki, ictimaiyyət Vardanyanın açıqlamalarından daha çox onun indiki məqamda belə bir qərar verməsini, daha doğrusu, əsas məqsədini başa düşməyə çalışırlar.**

Ekspertlərə görə, Rusiya və Ermənistan vətəndaşı olan milyarder Ruben Vardanyanın Rusiya sülhməramlı qüvvələrinin müvəqqəti nəzarət etdiyi əraziyə köçməsi siyasi planın tərkib hissəsidir. Onların fikrincə, Azərbaycanın sərhədlərini qanunsuz keçən Vardanyanın yerli əhalidən biri olmadan Qarabağda yaşaması cinayətdir. Ona görə də Rusiya sülhməramlı qüvvələri Ruben Vardanyanın Azərbaycan ərazisinə keçməsinin qarşısını almalıydı. Rəsmi Bakı Rusiya sülhməramlı qüvvələrindən həmin şəxsin Qarabağdan çıxarılmasını tələb etməlidir. Bəzi şərhçilərə görə, Ruben Vardanyanın Qarabağa köçürülməsini və burada siyasi fəaliyyətə başlamasının arxasında Rusiya durur.

**Bakı Politoloqlar Klubunun sədri Zaur Məmmədov deyib ki, Vardanyan Ermənistanın baş naziri olmaq üçün birbaşa İrəvana gəlsəydi, cəmiyyətdə reklamı az gedərdi. İndiki halda "milyarder Vardanyanın işini-gücünü ataraq ermənilər üçün ağır dönəmdə "Qarabağa köçməsi" onun üçün xalq arasında ən yaxşı piardır:** "Qarabağla bağlılığı olmayan, İrəvanda doğulub orta məktəbə gedən, Türkiyəyə dəfələrlə səfərlər edən Vardanyanın özünü "vətənpərvər" kimi təqdim etməsinin səbəbi hakimiyyətdir. Ruben Vardanyanın əsl məqsədi Ermənistanın lideri olmaqdır. Maraqlı nüans ortaya çıxır. Vaxtilə qərbpərəst Saakaşvili də oxşar senari ilə rus milyarderi İvanişvili tərəfindən hakimiyyətdən uzaqlaşdırılmışdı. Bu dəfə isə qonşu Ermənistanda Saakaşvilidən az qərbpərəst olmayan, rusofob Paşinyan gözləniləndən xaricdən gələn milyarder Vardanyanla hakimiyyət uğrunda mübarizə aparmalı olacaq. Təsadüfi deyil ki, Nikolun ailəsi tərəfindən idarə olunan informasiya resursları Vardanyanın gəlişinə ümumilikdə susmaqla, iki məqalədə isə tənqidlə cavab verdilər. Bəs revanşistlərin Vardanyanla hansı əlaqəsi var? İşxan Saqatelyan və gəncləri çıxmaqla qocaman siyasətbazların Rubenlə uzun müddət idi ki, biznes əlaqələri mövcud idi. Koçaryan indiki halda yaxşı başa düşür ki, Ermənistan daxilində Paşinyanı seçki yolu ilə kürsüdən endirəcək lider yoxdur. Baxmayaraq ki, Koçaryanın ətrafındakı media da Vardanyanla bağlı ironiyalı yazılar dərc etməkdədirlər. Maraqlı məqam Koçaryanın avqustda ölkəni bir müddətlik tərk etməsi idi. Kim bilir, bəlkə də onlar arasında xaricdə görüş baş tutub".

*Analitik vurğulayıb ki, Vardanyan indiki Ermənistan müxalifətindəki personalardan fərqli baxış bucağını son müsahibədə ortaya qoyub:* "Bəyanatında müharibələrdə iştirak etmədiyini, qonşularla sülhün vacibliyindən danışıb. Bu taktika isə, sözsüz ki, Paşinyanın elektoratının oğurlanmasına hesablanıb.

Onun biznes düşüncəli olaraq bu illər ərzində milyardlar əldə etməsi, bir dəfə də Qarabağa gəlməməsi, Rusiyadan çıxıb gəlməsi əsas hədəfin məhz - geosiyasi kontekst olduğu fikrini aktual edir. Hələ 2021-ci ilin yayında Ruben Vardanyan Ermənistana gələrək siyasətlə məşğul olmaq istədiyini bəyan etmişdi. Xatırladım ki, Vardanyanın kompaniyalarına qarşı son 5 ildə İtaliya, İspaniya, Almaniya tərəfindən yoxlanmalara başlanılıb. Hətta 2019-cu ildə Avroparlamentin 22 deputatı açıq məktubla Avrokomissiyanın ovaxtkı rəhbərinə müraciət etmişdilər. Onun şirkəti 80-dən artıq şirkətin milyardlarla dollarının ofşorlara transfer edilməsində, çirkli pulların yuyulmasında günahlandırılır. Beləcə, Ruben Vardanyan Qarabağa necə gəlibsə, elə də ordan rədd olacaq. Ermənistanı isə maraqlı siyasi proseslər gözləyir".

İsmayıl Qocayev

# Yeni qanun çoxpartiyalılıq sisteminə xidmət etməlidir

## Tural Abbaslı da Milli Məclisdə gözlənilən müzakirələrə qatılmaq istəyir



**Milli Məclisdə təmsil olunan bütün siyasi partiyaların nümayəndələri "Siyasi partiyalar haqqında" yeni qanun layihəsinin hazırlanması üçün Milli Məclisin sədrinə müraciət ediblər.**

Müraciətdə ölkəmizin müasir inkişaf reallıqlarına və dövrün tələblərinə cavab verən yeni qanunun hazırlanmasının vacibliyi öz əksini tapıb. Parlamentdə təmsil olunmayan partiyalar isə yeni qanun layihəsi ilə bağlı öz təkliflərini irəli sürüblər. Ötən gün 10 siyasi partiya təkliflərini Milli Məclisə göndərib. Beləliklə, bu günə qədər Milli Məclisə təkliflərini ünvanlayan siyasi partiyaların sayı 39-a çatıb. Hazırda böyük ictimai əhəmiyyət kəsb edən bu yeni qanun layihəsinin hazırlanması üzərində iş davam edir. Qeyd edək ki, "Siyasi partiyalar" haqqında yeni qanun layihəsinin geniş müzakirəsi üçün Milli Məclisdə ictimai dinləmənin keçirilməsi nəzərdə tutulur.

**Yeni qanun layihəsi ilə bağlı təkliflərlə çıxış edən siyasi partiyalardan biri də AĞ Partiyadır. AĞ Partiya sədri Tural Abbaslı "Şərq"ə açıqlamasında bildirib ki, Milli Məclisdə təmsil olunan partiyalar parlament sədri Sahibə Qafarovaya müraciət edərək "Siyasi partiyalar" haqqında yeni qanunun qəbul olunmasını istəyiblər.** Partiya rəhbərinin sözlərinə görə, parlamentdən kənarda olan siyasi partiyalar parlament sədrinə yeni qanunun qəbulu üçün deyil, öz təkliflərinin nəzərə alınması üçün müraciət ediblər: "Yeni layihədən gözləntilərimiz odur ki, qanun daha demokratik olsun və real şərtləri nəzərə alınsın. Əfsuslar olsun ki, yeni qanunun necə olacağını, gözləntilərə cavab verib-verməyəcəyini indidən söyləmək çətindir. Yeni qanun çoxpartiyalılıq sisteminə xidmət etməlidir. Partiyaların fəaliyyətini daha da zəiflədəcək, məhdudlaşdıracaq, iqtidarın nəzarəti altına verəcək qanun qəbul olunmamalıdır. Gözləyək. Deyirlər ki, qanun layihəsinin müzakirələri aparılacaq və partiyaları da dəvət edəcəklər. 14-15 maddədən ibarət təkliflərimizi Milli Məclisə göndərmişik. Nəzərə alınıb-alınmayacağını deyə bilmərəm. Ancaq layihə açıq müzakirəyə çıxarılarkən AĞ Partiya olaraq öz fikirlərimizi bildirəcəyik".

İsmayıl



# Hər insanın orqanı fərqlidir

## Dərman preparatları yalnız həkim təyinatı ilə satılmalıdır

Məlahət Rzayeva

**Azərbaycanda yalnız həkim resepti olmadan satışına icazə verilən dərman vasitələrinin reklamına icazə var. Amma bu o anlama gəlmir ki, bu dərmanları kim harada və necə gəldi reklam edə bilər. Həmin vasitələr reklam edilərkən, yetkinlik yaşına çatmayan şəxslərə müraciət etmək olmaz.**

Reklam olunan dərman vasitəsinin istifadəsi nəticəsində insanın xəstəliklərdən sağalmasının, səhhətinin yaxşılaşmasının konkret hallarına istinad etmək də qadağandır. Bundan əlavə, fiziki şəxslərin minnətdarlığını bildirmək, sağlam insanda reklam olunan dərman vasitəsinin istifadə edilməsinin zəruriliyi barədə, həkimə müraciət etməyin gərəksiz olmağı barədə təsəvvür yaratmaq, dərmanın müsbət təsirinə, təbii mənşəli olmasına, təhlükəsizliyinə, effektivliyinə və əlavə təsirlərin olmamasına təminat vermək, reklam olunan dərman vasitəsini bioloji fəallığa malik qida əlavəsi qismində təqdim etməyə icazə verilmir. Həkim resepti olmadan buraxılan dərman vasitələrinin qəbulu əlavə təsirlə müşayiət olunduqda, reklamda bu barədə məlumat verilməli, həkimlə, yaxud mütəxəssislə məsləhətləşmənin zəruriliyi qeyd olunmalıdır. İstifadəsi üçün xüsusi hazırlıq tələb olunan dərman vasitələri barədə reklam isə yalnız tibb sahəsində ixtisaslaşdırılmış mətbu nəşrlərində, tibb işçiləri və əczaçılar üçün keçirilən tədbirlərdə yayımlana bilər. Ölkəmizdə dərman vasitələrinin pulsuz paylanması, satışı, ödənişli və ya ödənişsiz tibbi xidmətlərin göstərilməsi ilə müşayiət olunan reklam aksiyalarının keçirilməsinə də icazə verilmir. Azərbaycan Respublikasının Dövlət Reklam Agentliyinin mətbuat katibi Hüseyn Azəri bildirib ki, qanunun tələblərini pozmamaq üçün sahibkarlar həkim resepti olmadan buraxılan dərman vasitələrini açıq məkanda reklam etməzdən əvvəl agentlikdən icazə almalıdırlar. Bu halda həmin reklamın məzmununa müvafiq nəzarət olunur, bununla da qanunvericiliyin tələbləri yerinə yetirilir. Qeyd edək ki, "Reklam haqqında" Azərbaycan Respublikası Qanununun 29-cu maddəsində dərman vasitələrinin reklamı ilə yanaşı, tibbi təyinatlı texnikanın və məmulatların, eyni zamanda tibbi xidmətlərin reklamından bəhs edilir.

*"Bəlkə birinin qara ciyərində, böyrəklərində, mədəsində problem var, amma bundan xəbərsizdi. Özbaşına qəbul edilən hər hansı dərman preparatı vəziyyəti daha da ağırlaşdıracaq"*

**Fəlsəfə doktoru, terapevt Şəmsiyyə Namazlı "Şərq"ə açıqlamasında bildirdi ki, açıq satışda olan dərman vasitələrinin reklamına ciddi nəzarət edilməlidir.**

- Ümumiyyətlə, bu, dünyada qəbul edilmiş qaydadır ki, heç bir dərman preparatı həkim resepti, həkim təyinatı olmadan satılmır. Avropada da belədir, Türkiyədə də. Bizim "adi" saydığımız baş ağrısı üçün də dərmanlar reseptsiz satılmır. Amma bizdə necədi? Kim nə qədər istəyir, "Nemisil" preparatı alır, suya qatır içir. Bu cür dərman vasitələri qısa müddətə ağrıkəsici təsir göstərir, baş ağrısının əsl səbəbi isə bilinmir. Beləcə insanlar hansısa xəstəlik barədə çox gec xəbər tutur və sağalma mərhələsi də uzun çəkir, fəsadlar yaranır. Aptekdən yalnız xaricə qəbul üçün hansısa müalicəvi preparat almaq olar. Məsələn, müxtəlif sürtkü maddələri, yuyucu vasitələr, kremlər. Dərman preparatı hesab edilməyən vasitələr. Dərman preparatları yalnız həkim təyinatı ilə satılmalıdır. Çünki həkim dərmanları xəstəliyin klinik gedişatına uyğun təyin edir. Burda xəstəliyin tarixçəsi, hazırkı vəziyyəti, başqa hər hansı xroniki xəstəliyinin olub-olmaması, pasiyentin yaş həddi, hətta çəkisi də nəzərə alınır. Bir də görürsən kimsə aptekdən kalsium dərmanı alıb qəbul edir. Soruşursan, niyə bu dərmanı içirsən, deyir, ayaqlarımda ağrı var, sümüklər üçündü, filankəsə həkim yazıb, məndə də eyni problemlərdir, ona görə qəbul edirəm. Halbuki, hər bir insanın orqanizmi fərdidir. Həkim pasiyenti müayinə etdikdən sonra, eyni simptomlarla müraciət etmiş şəxslərə də fərqli müalicələr təyin edə bilər. Çünki hər bir orqanizm individualdır. Birinə yaxşı təsir göstərən dərman digərində ağır fəsadlar yarada bilər. Bəlkə birinin qara ciyərində, böyrəklərində, mədəsində problem var, amma bundan xəbərsizdi. Özbaşına qəbul edilən hər hansı dərman preparatı isə vəziyyətini daha da ağırlaşdıracaq. Apteklərdə də əczaçılar çox zaman alıcılara müxtəlif dərman preparatlarını məsləhət görürlər. Həkimin təyin etdiyi vasitələr qalır kənarda, aptek öz malını satmağa çalışır. Qarşındakı insanın sağlamlıq vəziyyətini bilmədən ona hansısa dərman vasitəsini məsləhət görmək kökündən yanlışdır. Bu, satışdakı dərman vasitələrinin aşkar surətdə reklamıdır. Televiziya verilişlərində, verilişlər arası reklam fasilələrində də dərman preparatlarının reklamı yolverilməzdir. Çünki insanlar reklama aldanır və gördükləri, haqqında danışılan preparatı almağa cəhd edirlər. Və böyük səhvə yol verirlər. TV proqramlarda ümumiyyətlə heç bir dərman preparatının adı çəkilməməli, reklam olunmamalıdır. Proqrama dəvət olunan həkim hansısa xəstəlik və onun müalicəsi barədə məlumat verməlidir. Dərman vasitəsindən danışsa, gərək hərtərəfli izah etsin, buna da efir vaxtı çatmaz.

**Ş.Namazlı qeyd etdi ki, xüsusilə xanımların apteklərdə satışa çıxarılan arıqlama vasitələrini alması təhlükəlidir:**

- Hazırda arıqlamaq üçün hər cür preparatlar reklam edilir. Sayı-hesabı da yoxdur. Xanımlarımız da bunları alır, qəbul edir və təəssüf ki, çox zaman ağır nəticələrlə üzləşirlər. Mədə-bağırsaq pozğunluğu, endokrinoloji tarazlığın pozulması yaranır. Həkim təyinatı olmadan qəbul edilən həblər mədədə qanaxma da yarada bilər. İnsanın xəbəri olmaz, daxili qanaxmadan həyatını itirər. Bir sözlə, hər bir məhsulu reklam etmək olar, dərmanlardan savayı. Səhvən qəbul edilən dərmanlar həyat üçün böyük təhlükədir.

# Xarakterinə görə, Marqaret Tetçerə bənzədirlər

## Liz Trass Ukrayna və Rusiyaya münasibətində daha açıq mövqe ortaya qoyacaq və daha sərt sanksiyalar tələb edəcək



**Böyük Britaniyanın Xarici işlər naziri Liz Trass hakim Mühafizəkarlar Partiyasının sədri və ölkənin yeni Baş naziri seçilib. Trass partiya lideri və baş nazir vəzifəsində Boris Consonu əvəz edəcək.**

Conson yaxın vaxtlarda Böyük Britaniya kraliçası II Elizabetə hökumət başçısı vəzifəsindən istefa verməsi barədə hesabat verməli və L.Trassı xələfi kimi təqdim etməlidir. Trass kraliça ilə görüşdən sonra rəsmi olaraq Baş nazir olacaq. Qeyd edək ki, L.Trassın 47 yaşı var, 11 ay xarici işlər naziri olmaqla, 3 baş nazirin hökumətində altı nazir vəzifəsində çalışıb. Trassın dövründə Britaniya Xarici İşlər Nazirliyi Rusiyaya qarşı ən sərt sanksiyaları tətbiq edib. O, Rusiyanın Ukraynaya təcavüzündə Kiyevi ən qəti dəstəkləyən, Rusiya Prezidenti Vladimir Putinə qarşı daha sərt davranmağa çağıran siyasətçilərdən biridir. Onun yeni "Dəmir Ledi" olmaq istədiyi güman edilir.

**Vəhdət Partiyasının sədr müavini Vasif Əfəndiyev "Şərq"ə bildirib ki, sabiq baş nazir Boris Consonun Böyük Britaniyada vəzifə başına gəlişi ilə London üçün yeni səhifə açılmışdı. Partiya rəhbəri qeyd edib ki, mühafizəkarlar partiyasında daha praqmatik, aktiv və realist xətt yaranmışdı:** "Consonun zamanında bilik, əqidə və hərəkətlərin bir-birinə qarşılıqlı münasibətləri ön plana çıxmışdı. Lizz Trassın gəlişi bu xətti daha da gücləndirəcək. Xarakterinə görə, Marqaret Tetçerə bənzədilən Trass Ukrayna və Rusiyaya münasibətində daha açıq mövqe ortaya qoyacaq və daha sərt sanksiyalar tələb edəcək. Böyük Britaniyanın Qafqaz siyasətində hər hansı dəyişikliyin olacağı gözlənilmir. Azərbaycan-Böyük Britaniya münasibətlərinin dərin tarixi kökləri var. Bu münasibətlər neft siyasəti üzərində qurulsa da, artıq ənənəvi siyasi münasibətlər də formalaşıb. Trassın bir zamanlar "SHELL" neft və qaz kampaniyasında iqtisadçı direktor vəzifəsində işləməsi neft sənayesində əlaqələrimizin daha da güclənməsinə xidmət edəcək".

İsmayıl Qocayev

# Çin yenə qabaqladı

## Nəfəs ala bilən peyvənd hazırlanıb



**Çində inhalyasiya yolu ilə insan orqanizminə nüfuz edə bilən "Covid-19" peyvəndi təcili istifadə üçün təsdiqlənib.**

Milli Dərman Administrasiyası, "CanSino Biotech" tərəfindən hazırlanmış dünyanın ilk "inhalyasiya edilə bilən" "Covid-19" peyvəndinin iki doza təsirsiz hala gətirilmiş peyvəndinin insanlar tərəfindən xatırlatma dozası olaraq istifadə edilə biləcəyinə qərar verib.

"Convidecia Air" adlanan peyvənd, şirkət tərəfindən daha əvvəl hazırlanmış tək dozalı "Covid-19" peyvəndi "Convidecia"nın inhalyasiya variantı olacaq.

Peyvəndin enjektor versiyası fevral ayında Çinin Milli Dərman Administrasiyasından və mart ayında Ümumdünya Səhiyyə Təşkilatından (ÜST) təcili istifadə üçün icazə alıb.

Peyvəndin inhalyasiya variantında injektor əvəzinə peyvəndin mayesini hava qabarcıqlarına çevirən "nebulizer" adlı sprey cihazı istifadə olunur. Tərkibində virusun zəifləmiş versiyası olan peyvənd tənəffüs yolu ilə ötürülən virusun təbii yoluxma yolunu stimullaşdırmaq və bununla da orqanizmdə immunitet yaratmaq məqsədi daşıyır. "Convidecia Air", "Covid-19" peyvəndləri arasında injektor əvəzinə nebulizer ilə tətbiq ediləcək ilk nümunə olacaq.

Sprey şəklində olan peyvəndlər qrip kimi tənəffüs yoluxucu infeksiyalardan qorunmaq üçün geniş istifadə olunur. Metod vaksinlərin istehsalı və tətbiqi xərclərini azaldır.

İnjektor və iynə tələb etməyən cihazın sağlamlıq imkanlarının kifayət qədər olmadığı ucqar ərazilərdə istifadə baxımından rahatlıq təmin edəcəyi nəzərdə tutulur.

Dərin dondurucuda saxlanmalı olan inyeksiya mayesindən fərqli olaraq, inhalyasiya edilə bilən peyvəndin mayesi kimyəvi bütövlüyünü qorumaqla 2 ilə 8 dərəcə selsi arasında saxlanıla bilər. Bunun qlobal miqyasda daha geniş yayılmış immun müdafiəsinə kömək edəcəyinə ümid edilir.

Nəticələri "The Lancet" jurnalında dərc olunan inhalyasiya edilə bilən vaksinin klinik sınaqlarında onun güclü immun reaksiyaya səbəb olduğu məlum olub. Çinin Jiangsu əyalətində 420 yetkin üzərində aparılan sınaqda peyvəndin daha əvvəl "Sinovac" tərəfindən hazırlanmış "Coronavac" peyvəndinin iki dozasını qəbul edən xəstələrdə tənəffüs orqanlarının hüceyrələrini virusa qarşı daha davamlı etdiyi müəyyən edilib.

Dərhal istifadənin təsdiqindən sonra "CanSino Biotech" səhmləri Şanxay Fond Birjasında 10 faiz, Honq Konq Birjasında isə 7 faiz dəyər qazanıb.

Turan

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Vətəndaş cəmiyyəti, hüquqi dövlət quruculuğu;



# "Həmkarlar ittifaqları da digər sahələr kimi inkişaf mərhələsindədir"

## Müşfiq Ələsgərli: "Təbii ki, bu strukturlarda da yenilənmə qaçılmazdır"

**Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası (AHİK) mədəniyyət paytaxtı Şuşa şəhərində "Vətəndaş cəmiyyətində həmkarlar ittifaqlarının rolu" mövzusunda konfrans keçirib. Konfransda AHİK sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev, Azərbaycan Prezidenti Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsinin sektor müdiri Vüsal Quliyev, Konfederasiyaya üzv təşkilatların rəhbərləri, həmçinin KİV nümayəndələri iştirak ediblər.**

AHİK-in sədri Səttar Möhbalıyev konfransda geniş məruzə ilə çıxış edərək, 44 günlük Vətən müharibəsindən, işğaldan azad edilmiş ərazilərimizdə aparılan bərpa-quruculuq işlərindən, qurumun fəaliyyətindən danışıb. Bildirib ki, Vətən müharibəsi dünyaya Azərbaycan xalqının nə qədər böyük, yenilməz, dəmir iradəli, müzəffər xalq olduğunu göstərdi: "Bu tarixi nəticə bizlər haqqında "məğlub xalq" rəyini sındırdı, xalqımıza özgüvən aşıladı, milli qürurumuzu qabartdı. Qələbə cənab İlham Əliyevin hakimiyyətdə olduğu illər ərzində həyata keçirdiyi güclü dövlət, güclü ordu strategiyasının məntiqi nəticəsi idi. Tarixi qələbə ilə Azərbaycan bir daha dünyanın inkişaf etmiş dövlətlərindən biri olduğunu təsdiqlədi". S.Möhbalıyev qeyd edib ki, Azərbaycan işğaldan azad etdiyi torpaqlarında erməni vəhşiliyini, barbarlığını dünyaya nümayiş etdirdi: "Beynəlxalq ictimaiyyət bir daha şahidlik etdi ki, Ermənistan illərlə dünyaya yalan satıb. Amma düşmənin bu xisləti heç də Azərbaycanı ruhdan, həvəsdən salmadı. Prezidentin sərəncamı ilə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları yaradıldı və azad edilən torpaqlarımızda quruculuq, yenidənqurma işlərinin başlanması ilə bağlı tapşırıq verildi. Heç bir maliyyə təşkilatından, beynəlxalq qurumdan, hansısa dövlətdən yardım almadan Azərbaycan öz imkanları hesabına bu işləri həyata keçirməyə başladı. Bu gün işğaldan azad edilmiş torpaqlarımızda misli görünməmiş quruculuq işləri davam edir. Prezidentin şəxsi nəzarətində olan bu işlər sürətlə aparılır". S.Möhbalıyev Qafqazın ən böyük qeyri-hökumət təşkilatı olan Heydər Əliyev Fondunun Qarabağ və Şərqi Zəngəzurda aparılan bərpa-quruculuq işlərində iştirakına diqqət çəkib: "Heydər Əliyev Fondu Qarabağdakı dini irsimizin, məscidlərimizin, mədəniyyət abidələrimizin bərpasını reallaşdırmaqdadır. Mehriban xanım Əliyevanın müqəddəs işə rəhbərlik etməsi onu deməyə əsas verir ki, bu layihə çox böyük uğurla həyata keçirilir. Bundan başqa, şəhid ailələri və qazilər də Mehriban xanımın diqqətindən kənarda qalmır. Onların, demək olar ki, bütün problemlərinin həllinə şəxsən dəstək olur, evlə, avtomobillə təmin olunmasında yaxından iştirak edir". Konfederasiya sədri Azərbaycan həmkarlar ittifaqlarının Vətən müharibəsində və ondan sonrakı dövrdə gördüyü işlərdən, döyüşən əsgər və zabitlərə, qazi və şəhid ailələrinə göstərdiyi maddi və mənəvi dəstəkdən bəhs edib: "AHİK və onun üzv təşkilatları tərəfindən Vətən müharibəsi və sonrakı dövrdə 9 milyon 93 min 487 manat vəsait xərclənib. O cümlədən Vətən müharibəsi dövründə AHİK İcraiyyə Komitəsinin qərarları ilə AHİK və onun üzv təşkilatları tərəfindən Azərbaycan Silahlı Qüvvələrinə Yardım Fondunun hesabına 1 milyon 36 min 815 manat ianə edilib. Naxçıvan Muxtar Respublikasında yaşayan, döyüşlər nəticəsində qəhrəmancasına həlak olmuş şəhid ailələrinə kömək göstərilməsi məqsədilə Muxtar Respublikanın Həmkarlar İttifaqları Şurasına 250 000 manat köçürülüb. AHİK və üzv təşkilatları tərəfindən Qarabağ Dirçəliş Fonduna 1 milyon 217 min 650 manat vəsait köçürülüb, silahlı qüvvələrə və cəbhə bölgəsinə 2320 864 manat, "YAŞAT" Fonduna 667 668 manat ianə edilib. Şəhid və qazi ailələrinə 3 milyon 600 min 475 manatlıq birdəfəlik yardım göstərilib. 172 şəhidin 286 övladı himayəyə götürülüb. O cümlədən 2016-cı ilin Aprel və 2020-ci ilin Tovuz döyüşlərinin 23 şəhidinin 41 azyaşlı övladının hər birinə 18 yaşına çatana qədər hər ay 150 manat ödənilməkdədir. Eyni zamanda Vətən müharibəsi iştirakçıları, qazilər və şəhid ailəsi üzvləri sağlamlıqlarının bərpa olunması məqsədilə istəklərinə uyğun olaraq sanatoriya-kurort yollayışları ilə güzəştli şərtlərlə təmin olunurlar".

Sonra AHİK sədri vətəndaş cəmiyyətində həmkarlar ittifaqlarının rolundan söz açıb. Vurğulayıb ki, demokratiyanın təzahürü kimi meydana çıxan həmkarlar ittifaqları insan hüquq və azadlıqlarının təmin olunmasına xidmət edən əsas təsisatlardandır: "Bu gün istər ölkəmizdə, istərsə də dünyada həmkarlar ittifaqlarının fəaliyyətinə nəzər saldıqda görünür ki, bu birlik ictimai zərurətdən yaranıb, vətəndaş cəmiyyətinin formalaşmasında, liberal dəyərlərin bərqərar olmasında, demokratiyanın inkişafında müstəsna əhəmiyyətə malikdir. Dünyada mövcud olan bütün həmkarlar ittifaqlarının proqramlarına, nizamnamələrinə, məramnamələrinə ümumi nəzər saldıqda görürük ki, bu birliklərin fəaliyyətinin mərkəzində insan faktoru dayanır. Onların sosial problemlərinin həllinə, iqtisadi maraqlarının təmin olunmasına, əmək sahəsində bütün qanuni hüquq və mənafelərin qorunmasına xidmət edir. Bu da insan hüquq və azadlıqlarının təminatı baxımından demokratiyanın prinsip və vəzifələrinə tam uyğun olmaqla vətəndaş cəmiyyətinin formalaşmasına və mütərəqqi istiqamətdə inkişafına mühüm töhfədir. Məhz buna görə də hər bir cəmiyyətdə vətəndaş cəmiyyətinin formalaşması üçün həmkarlar ittifaqlarının yaradılması zərurətə çevrilib".

**Jurnalistlərin Həmkarlar İttifaqının (JuHİ) sədri Müşfiq Ələsgərli "Şərq"ə deyib ki, həmkarlar ittifaqları yüz ildən artıqdır mövcuddur. Birlik rəhbərinin sözlərinə görə, həmkarlar ittifaqları əmək hüquqlarının formalaşması, qorunması baxımından çox böyük nailiyyətlərə imza atıb:** "Həmkarlar ittifaqları dünyada özünün say tərkibinə görə təqribən milyarda yaxın insanı birləşdirir. Konkret olaraq 600 milyondan çox üzvü birləşdirən ən böyük şəbəkədən söhbət gedir. Dünyada bu miqyasda ikinci böyük təşkilat yoxdur. Həmkarlar İttifaqı tarixən özünü təsdiqləmiş və mövcud sosial hüquqların qorunması, inkişaf etdirilməsi baxımından önəmli bir strukturdur. Həm nəzəri təkliflərin verilməsi və faktiki olaraq sosial hüquqların qorunması sahəsində mühüm mexanizmlərə malikdir. Həmkarlar İttifaqı yeganə təşkilatdır ki, səhiyyə və təhsil müəssisələrinə qədər daxil ola, strukturlaşa bilirlər. O səbəbdən həmkarlar ittifaqlarının yaşadılması və inkişaf etdirilməsi çox vacibdir".

Ekspert vurğulayıb ki, Azərbaycanda da həmkarlar ittifaqları kifayət qədər inkişaf yolu keçib: "Həmkarlar ittifaqlarının Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası (AHİK) tərkibində olması onların öz güclərini birləşdirərək daha effektli fəaliyyətinə imkan yaradır. Məsələ ondadır ki, həmkarlar ittifaqları da digər sahələr kimi inkişaf mərhələsindədir. Ara-sıra ortalığa çıxan tənqidlər də bununla bağlıdır. Həmkarlar ittifaqları da öz fəaliyyətlərində modernləşmə etməli, daha geniş sferaya təsir etmək üçün çalışmalıdırlar. Ümumi fəaliyyət qaneedicidir, amma dünya inkişaf edir, sistemlər dəyişir, modellər inkişaf edir. Təbii ki, bu strukturlarda da yenilənmə qaçılmazdır. Diqqətçəkən və təqdir olunası hal odur ki, Prezident Administrasiyasının rəsmisi Vüsal Quliyev belə konfranslarda iştirak edir, müzakirələrə qatılır və öz təkliflərini dilə gətirir. Bu da onu göstərir ki, Azərbaycan hökumətinin həmkarlar ittifaqlarının inkişafında marağı, istəyi böyükdür. Həmkarlar ittifaqlarına diqqət həm də insanların əmək hüquqlarına olan diqqət deməkdir. Hesab edirik ki, Şuşadakı konfrans, həmkarlar ittifaqları sahəsində müzakirələrin aparılması, innovativ yenilənmələr üçün təkliflərin səslənməsi yönündə stimul rolunu oynayacaq".

**İsmayıl Qocayev**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**



# Küçələrdə, yol kənarında ət məhsulları satılır

## Eyyub Hüseynov: "Hələ də heyvanların heç 1 faizi identifikasiyadan keçməyib"

**Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi (AQTA) baytarlıq-sanitariya və sanitariya-gigiyena normalarına cavab verməyən yerlərdə, küçələrdə, yol kənarlarında heyvan kəsimi hallarının qarşısının alınması məqsədilə Daxili İşlər Nazirliyi və rayon icra hakimiyyətlərinin nümayəndələri ilə birgə mütəmadi reydlər keçirib.**

AQTA-dan "Şərq"ə verilən məlumata görə, reydlər "Heyvan kəsimi fəaliyyətinin tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 11 iyun tarixli Sərəncamına uyğun olaraq həyata keçirilib.

Götürülən nümunələr Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunda müayinələrə cəlb olunub. Təqdim olunan ət nümunələrindən 241-də uyğunsuzluq aşkarlanıb. Nümunələrdə E.coli, Salmonella, Streptokokk, bağırsaq çöpü qrupu bakteriyaları (BÇQB) və anaerob bakteriyaları müəyyən edilib. Həmçinin aparılan müayinələr zamanı istehlakçılara mal və dana əti kimi təqdim olunan bəzi ət və ət məhsullarında at ətinin DNT-si aşkarlanıb. AQTA bəyan edib ki, ölkədə qanuni şəkildə ət və ət məhsullarının satışı yalnız baytarlıq arayışı və baytarlıq şəhadətnaməsi kimi müşayiətedici sənədlər əsasında həyata keçirilə bilər. Zoonoz xəstəliklərə yoluxma və digər neqativ halların yaranmaması üçün müvafiq sənədləri olmayan ət və ət məhsullarının alınması və istehlak olunması tövsiyə edilmir.

Qeyd edək ki, qida mənşəli zoonoz xəstəliklər, adətən, mikroorqanizmlərlə çirklənmiş heyvan mənşəli qida məhsullarının insanlar tərəfindən istehlakı zamanı baş verir. Avropa Birliyi ölkələrində hər il yüz minlərlə insanın qida mənşəli zoonoz xəstəliklərə yoluxma halı qeydə alınır. Bir faktı qeyd etmək kifayətdir ki, hazırda bütün dünyada insanlar arasında rast gəlinən yoluxucu xəstəliklərin 60 faizdən çoxu məhz zoonoz infeksiyaların payına düşür.

Ən təhlükəli zoonoz xəstəliklərindən biri olan Qarayara bir çox kənd təsərrüfatı və vəhşi heyvan növlərinin və insanların təhlükəli, iti septiki xəstəliyi olub, septisemiya, dərinin, bağırsaqların, ağ ciyərin, limfa vəzilərinin zədələnməsi və xəstələnmiş heyvanların ölməsi ilə səciyyəvidir. Xəstəliyə bütün növlərə aid kənd təsərrüfatı heyvanları, həmçinin bir sıra ov heyvanları həssasdırlar. Kolibakterioz xəstəliyi isə bütün növ kənd təsərrüfatı və vəhşi heyvanlarda, həmçinin quşlarda septiki, enterotoksiki və ya enterit formalarda özünü göstərən zoonoz xəstəlikdir. Təhlükəli qida infeksiyalarının törədicilərindən olan Salmonella qida zəhərlənmələrinin əsas törədicilərindən sayılır və heyvan mənşəli qida məhsullarının istehsal və ya istehlakı dövründə sanitar-gigiyenik qaydalara əməl edilmədikdə geniş yayılır. Xüsusilə də quşçuluq məhsulları (quş əti, yumurta və s.) bu bakteriya növünün əsas daşıyıcısıdır.

**Azad İstehlakçılar Birliyinin (AİB) sədri Eyyub Hüseynov sanitariya-gigiyena normalarına cavab verməyən yerlərdə heyvan kəsilməsi və satılması məsələsinin çox ciddi məsələ olduğunu deyib. O, bu problemlə bağlı istehlakçılar tərəfindən AİB-ə ölkənin hər yerindən çoxsaylı şikayətlər edildiyini deyib. Birlik sədrinin sözlərinə görə, insanlar əti necə seçmək, haradan almaq, qiymətin paradoksallığı, ətdən hazırlanan kolbasanın qiyməti ilə bağlı çoxsaylı suallar verirlər:** "Bütün xəbərdarlıq və keçirilən maarifləndirmə işlərinə rəğmən hələ də küçələrdə, yol kənarlarında müstəqil şəkildə ət kəsib satanlar var. Kim harada istəyir, orada da heyvan kəsib, ət satr. Bir sıra xarici ölkələrdə kimsə öz heyvanını kəsərsə, külli miqdarda cərimə olunur. Düzdür, cəza üsulları ilə bazara təsir etmək doğru deyil. Bazar tələb və təklif əsasında işləməlidir. Hər halda biz də hansısa mübarizə üsulu tapıb həyata keçirməliyik ki, sanitariya-gigiyena normalarına cavab verməyən yerlərdə heyvan kəsib, ət satan insanlar bunun mümkünsüz olduğunun fərqinə varsınlar".

*E.Hüseynovun sözlərinə görə, bu sahədə müəyyən işlər görülsə də şəhərin mərkəzində belə heyvanların antisanitar şəraitdə kəsilməsi, murdar olmuş heyvan ətlərinin regionlardan şəhərə daşınması müşahidə edilir:* "Mərkəzləşdirilmiş ət kəsimi məntəqələri hələ də tam düzgün işləmir, yenə də yol kənarında, harada necə gəldi ətin kəsildiyini, satıldığını görürük. Şəhərin mərkəzi küçələrində də belə hallara rast gəlinir. Nazirlər Kabinetinin qərarına görə, ölkənin əmtəə bazarında satılan bütün mallar, o cümlədən ətlər bükülməli və üzərinə buraxılma tarixi, yararlılıq müddəti qeyd olunmalıdır. Lakin bu cür ət satışı həyata keçirilmir".

**Eyyub Hüseynov vurğulayır ki, Azərbaycanda heyvanların identifikasiyası məsələsi gündəmdədir.** Amma hələ də heyvanların heç 1 faizi identifikasiyadan keçməyib. Bu işi həyata keçirən Qida Təhlükəsizliyi Agentliyi əgər heyvanların identifikasiya məsələsini həll edərsə, onda ətlər markalanacaq, yəni istehsal edən firmanın adı, nömrəsi, digər rekvizitləri qeyd olunacaq, ətin hansı mənbədən gəldiyi məlum olacaq".

**Şəymən**

# Borçalıda ana dilində təhsil alma imkanları daralır

## Bu məsələyə Gürcüstanın iç məsələsi kimi yox, içimizin yanğısı kimi baxmalıyıq



**Gürcüstanda Azərbaycan türkcəsinin tədrisi ilə əlaqəli yeni qərar qəbul edilib. Təhsil və elm naziri Mixeil Çxenkeli 19 avqust 2022-ci il tarixində "Milli kurrikulumun təsdiq edilməsi haqqında" əmrə dəyişiklik edilməsi ilə bağlı sərəncam imzalayıb. Yeni qəbul edilmiş sərəncamda ana dilimizlə bağlı belə bir müddəa yer alıb:**

"Azərbaycan dili və ədəbiyyat fənninə həftədə minimum 3, maksimum 5 saat vaxt ayrılır. Eyni zamanda, məktəb ikinci xarici dilin tədrisinə 1 və ya 2 saat ayırmaq qərarına gələrsə, Azərbaycan dilinin tədrisinə maksimum 3 saat ayrılmalıdır". Sərəncam 1 sentyabr 2022-ci il tarixindən qüvvəyə minib. Ekspertlərə görə, qərarın bizim üçün mənfi sayılacaq bir neçə hədəfi var.

**Millət vəkili Fazil Mustafa deyib ki, Borçalıda yaşayan soydaşlarımız əsasən şivə ilə danışır və oradakı gənclərimizin əhəmiyyətli hissəsi Azərbaycan dilinin qarammatikasına uyğun yazı yaza bilmir.** Deputata görə, əgər dərs saatları 5-dən 3-ə düşərsə, bu, ana dili və ədəbiyyat dərslərinin 40 faiz daha az tədris edilməsi demək olar: "Bunun əsas fəsadı ana dilini öyrənməyə daha az vaxt verilməsi ilə soydaşlarımız arasında mədəni bağların zəifləməsində özünü göstərə bilər.

Digər tərəfdən dünya təcrübəsindən də bilirik ki, ana dilini yaxşı bilməyən fərdlərin uğur qazanması xeyli çətin olur. Gürcüstanda yaşayan gənclərimiz yalnız orta məktəbdə öz ana dili ilə təmasda olurlar. Məişət həyatında istifadə etdikləri söz leksikonu isə daha məhduddur. Nəticə olaraq bu gənclər ana dilini yaxşı öyrənmədən başqa dilləri yaxşı bilsələr belə, bir çoxu uğur qazana bilməyəcək. Bu səbəbdən də ana dilində həftədə dərs saatının minimum 5 saat nəzərdə tutulması daha səmərəli olardı. Xatırladaq ki, bizdəki gürcü məktəblərində bu müddət minimum 5 saat nəzərdə tutulub".

**F.Mustafa bildirib ki, bu addıma heç cür Gürcüstanın iç məsələsi kimi baxmaq olmaz:** "Məhz bizim içimizin məsələsi və hətta yanğısı kimi baxılmalıdır. Çünki Gürcüstanda Azərbaycan türkünün artıq ana dilindən, Kamandarın sazının nostalgiyasından və süfrədəki xəngəl çeşidlərindən başqa bir milli realitəsi qalmayıb. Ana dilində təhsil alma imkanları get-gedə daralır, bu təhsili verəcək kadrlar da yoxa çıxmaqdadır. Bunu yalnız gürcü tərəfi məqsədli şəkildə etmir. Həm də Bakıda oturub iştahla "gürcü" adı ilə kodlaşdırılan xəngəli yeyən vəzifəli-vəzifəsiz bütün azərbaycanlıların duyarsızlığı edir. Bu səbəbdəndir ki, soydaşlarımızın yaşadığı məkanlardakı məscidlərin mütləq əksəriyyətində də qum üfunəti tüğyan edir. Artıq Quma göndərilənlərin sayı Bakıya universitetə gedənlərin sayını çoxdan ötüb. Ana dili xalqı Vətən torpağına bağlayan əsas cazibədir. Onu addım-addım Bakıda məktəblərimizdən qovan zehniyyətlə, Təbrizdə, Borçalı və Başkeçiddə qovan zehniyyət eynidir. Bizə, yəni dünyagörmüş, fəqət tarix boyu burnunun ucundan uzağı görməmiş azərbaycanlılara eyni mərkəzdən baxırlar".

**İsmayıl**

# Dərslər arxasınca tıxaclar gətirəcək

## Eldəniz Cəfərov: “Tam aradan qaldırılmasa da mərhələ-mərhələ sıxlığın qarşısını almaq olardı”



**Bir neçə gündən sonra dərslər başlayacaq. Ekspertlərin proqnozuna görə, paytaxt küçələrində yenə də sıxlıq və bəlkə də son illər rast gəlmədiyimiz tıxaclara şahidlik edəcəyik. Səbəblər isə müxtəlifdir.**

Metropoliten yerində sayır. 10 ildə bir stansiyanın istismara verilməsi qənaətbəxş hesab olunmur. Paytaxtın ictimai nəqliyyatının bel sütunu olan avtobuslarla sərnişindaşıma çox ciddi iqtisadi, texniki və təşkilati böhran yaşayır. Dövlətin ciddi dəstəyi və müdaxiləsi olmasa, bu sektorun çöküşü çox uzaqda deyil. Qiymətlərin ucuzlaşması son illərdə taksi minik avtomobillərinin sayının dəfələrlə artmasına gətirib çıxarıb.

Avtomobillərin hərəkətinin təşkilindəki qüsurlar, qanunsuz parklanma, bəzən elementar mədəniyyətsizlik və s. də tıxac yaradan səbəblər arasındadır. Ən pisi isə odur ki, hansısa dövlət qurumunun bu bəlanı həll etmək istiqamətində aydın fəaliyyət planı, ideyası yoxdur.

**Nəqliyyat məsələləri üzrə ekspert Eldəniz Cəfərov isə ”Şərq”ə açıqlamasında deyib ki, Bakıda tıxac problemi daim mövcud olub və bundan sonrakı illər üçün də müsbətə doğru bir dəyişiklik gözlənilmir:** ”Tıxacların qarşısının alınması və ya azaldılması ilə bağlı Bakı şəhərində hansısa bir tədbirlərin görülməsinin şahidi olmamışam. Ona görə də dərslər başlayandan sonra sıxlıq və tıxacların artması istisna deyil. Düşünürəm ki, artıq insanlarımız da buna alışıb deyə bir o qədər də ürküdücü görünmür”.

***"Bakı şəhərindəki tıxacların səbəblərindən biri köhnə, yararsız avtomobillərin çoxluğudur"***

Tıxacların obyektiv və subyektiv səbəbləri olduğunu vurğulayan ekspert deyib ki, tam aradan qaldırılmasa da mərhələ-mərhələ sıxlığın qarşısını almaq olardı. Əvvəlcə infrastrukturun yenilənməsinə, modernləşdirilməsinə ehtiyac var. Bakı şəhərindəki tıxacların səbəblərindən biri köhnə, yararsız avtomobillərin çoxluğudur: ”Bütün bölgələrdən Bakıya işləmək üçün çoxlu vətəndaşlar gəlir və onlar rahat hərəkəti təmin etmək üçün ucuz və köhnə avtomobillər alırlar. Çünki hazırda ictimai nəqliyyat əlçatan deyil. Vacib olan ictimai nəqliyyatın fəaliyyətinin tənzimlənməsidir. Vətəndaşlara yüksək xidmət göstərilsə onlar fərdi nəqliyyat və ya taksilərdən deyil, məhz marşrutlardan istifadə edərdi. Amma bu sahədə vəziyyət ürəkaçan olmadığı üçün tıxacların qarşısını almaq mümkün olmayacaq”.

*Ekspert onu da bildirib ki, tıxacların səbəblərindən biri də yol infrastrukturunun bərbad vəziyyətdə olmasıdır:* ”Bəzi ərazilərdə yollar qaranlıq və çalaçuxurludur, nişanlanma və xətlənmə pis vəziyyətdədir. Bəzi ərazilərdə isə yolların avtomobil buraxma qabiliyyəti zəifdir, döngə və dairələrdə hərəkət düzgün təşkil olunmayıb. Həmçinin tez-tez paytaxt yollarında qəzalar baş verir ki, bu da tıxacların yaranmasına yol açır. Parklanma problemi, yollarda təmir-tikinti işlərinin müvafiq vaxtlarda aparılmaması, hər hansı sahibkar tərəfindən yolun bir hissəsinin zəbt olunaraq obyektin tikilməsi kimi hallar tıxacların yaranmasının bir digər səbəbidir”.

**Şəymən**

## Xalq artisti Səyavuş Aslana məxsus materiallar Tarix Muzeyinə verilib



**Teatr və kino aktyoru, Xalq artisti Səyavuş Aslana məxsus olan üç əşya Milli Azərbaycan Tarixi Muzeyinin Sənədli mənbələrin elmi fondu şöbəsinə təqdim edilib.**

Bu barədə ”Report”a AMEA-dan məlumat verilib. Nümunələrdən biri S.Aslanın anadan olmasının 50 illiyi münasibətilə 1985-ci ildə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin qərarı ilə ona verilən Fəxri fərman, digəri isə müstəqillik dövründə Mədəniyyət Nazirliyi və Azərbaycan Teatr Xadimləri İttifaqı tərəfindən verilmiş fəxri nişanlardır.

## Şəbnəm Tovuzlu yalan danışır

Nüşabə Musayeva müğənnini dürüstlüyə çağırıb



**Müğənni Şəbnəm Tovuzlu və Nüşabə Musayeva qalmaqalı bitmək bilmir.**

”Şərq”in məlumatına görə, ”Tarix Əliyev ilə səmimi” layihəsinin qonağı olan Ş.Tovuzlu həmkarının evinə getdiyini söyləyib: ”Blokun qarşısına çağırdım. O qədər sərt getmişdim ki, elə bildi dalaşacam. İkimizin də ürəyində bir şey yoxdu. Gördüm qaşqabaqlı dayanıb. Ərkyana şəkildə ”Utanırsan, heç ayıb deyil sənin üçün? Bu nə hoqqadır çıxardırsan. Dərdin varsa, telefonla yığ danışaq, kamera qarşısında olmaz” dedim”.

**Şəbnəm Nüşabədən uzaqlaşmağının səbəbini belə açıqlayıb:** ”Məhşurlaşdıqdan sonra bəzi xoşagəlməz oyunlar, rəqslər... Bacı kimi dedim ki, iki qızın var, qurban sənə, bu cür oyunlar etmə.

Həyatında olan şəxsi də ona layiq görmürdüm. İndi onunla ayrılıblar. Başına oyun açan da həmin oğlan oldu. Buna görə məndən incimişdi”.

**Nüşabə Musayeva isə sosial şəbəkədə paylaşım edərək Şəbnəm Tovuzlunun söylədiklərini təkzib edib:** ”Ay Şəbi, niyə? Axı niyə yalan danışırsan? Biz telefonla danışdıq. Evin ünvanını sənə özüm başa saldım. Evə özüm çağırdım. Qapının ağzında dayandın. Gəl içəri dedim. Zəhramı öpdün, adam kimi danışdıq. Hətta ağlayıb məni qucaqladın. Ay Şəbi, nolar, dürüst ol. Düzünü danış. Maskalanma, saxta olma. Elə danışmısan, guya, səndən qorxmuşam, məni döyməyə gəlmisən. Mən istəməsəm həndəvərimə heç kim yaxın dura bilməz. Söhbət bağlanmışdı, niyə yenə məni danışdırırsan?”.

**Aygün Tahir**


**Elan**

Əhədli Mübariz Mehman oğlunun adına Yeni Azərbaycan Partiyasının Suraxanı rayon təşkilatı tərəfindən verilmiş vəsiqə itdiyi üçün etibarsız sayılır.

”Ümid Construction-2018” Məhdud Məsuliyyətli Cəmiyyətinə məxsus möhür itdiyi üçün etibarsız sayılır.

”Azerifood Co” Məhdud Məsuliyyətli Cəmiyyətinə məxsus möhür itdiyi üçün etibarsız sayılır.




## "Axmaq puma" sindromu

Bəzən təslim olmağı da bacarmalıyıq

**Pişikkimilər ailəsinin ən möhtəşəm üzvlərindən biri olan pumalar çox ağıllı bir ovçudurlar.**

Çəkisi yüz kiloqrama qədər olan pumalar inanılmaz əzələ gücü, koordinasiya və yaradanın onlara bəxş etdiyi digər xüsusiyyətlər sayəsində vəhşi təbiətin ən qorxulu yırtıcılarından birinə çevriliblər.

”Şərq” xarici mediaya istinadən xəbər verir ki, vəhşi təbiət qanunlarına uyğun hərəkət edən pumalar, digər yırtıcılar kimi yaşamaq üçün digər canlıları öldürürlər.

Amma pumalar hər ovdan müvəffəqiyyətlə qayıda bilmirlər. Bəzən təqib etdikləri ov pumalardan daha çevik, daha ağıllı və ya sadəcə, şanslı olur.

O zaman ”axmaq puma” təslim olmur. Hər şeyə rəğmən tuta bilmədiyi şikarın dalınca gedən ” axmaq puma”, nəhayət, bütün gücünü tükədir və o, acından ölür. ”Axmaq puma” sindromu bizə həyat boyu xatırlayacağımız bir şey öyrədir.

Öyrənəcəyimiz şey imtina etməyin bəzən bir fəzilət ola bilməsidir. Beləliklə, səylərimizin qarşılığını almamaq bizi ”axmaq puma”lar edir. Bəzən təslim olmağı da bacarmalıyıq.

**Günəş Mərd**

# Kosmetik məhsullar tez xarab olur

## Bunu müəyyənləşdirməyin asan yolları var

**Xanımların gündəlik hazırlıq rutininin bir parçası olan makiyaj, korlanmış məhsulların istifadəsi nəticəsində sizə xeyirdən çox zərər verə bilər. Kimyəvi tərkibli kosmetik məhsulların xarab olduqdan sonra istifadəyə davam etmək, həssas dəri və gözlər kimi bölgələrdə reaksiyalara səbəb olaraq ciddi nəticələr yaratması mümkündür. Kosmetik məhsulların xarab olub-olmadığını necə təyin edəcəyinizi bilmək istəyirsinizsə, ”Şərq”in məlumatlarını oxumağa davam edin.**



**Kremlər**

Gecə, gündüz və ya göz altı kremləri... Kremlərin rənginin və konsistensiyasının dəyişməsindən istifadə müddətinin bitdiyini anlamaq mümkündür. Bir müddət istifadə etmədiyiniz kremin qapağını açsanız və üzərində yağ təbəqəsi görsəniz, deməli, artıq məhsul xarabdır.

**Tonal kremlər**

Tonal kremi ilk dəfə açdığınız zaman onun əsl rəngini, tutarlılığını və qoxusunu hiss etmək çox asandır. Ancaq havaya və istiliyə məruz qalan tonallar zamanla xarab ola bilər. Birincisi, siz faktura və rəng fərqini müşahidə edəcəksiniz. Sağlamlığınız üçün getdikcə tonu daha tünd olan tonal kremlərdən istifadə etməyi dayandırmağınız tövsiyə olunur. Eyni zamanda dəridə arzuolunan effekti verməyən xarab tonal kremlər qaldıqları müddətdə qabarmağa başlayır. Dərimizə tətbiq etdiyimiz bu məhsulun kimyəvi olduğunu nəzərə alaraq, xarab olduqda allergik reaksiyalara səbəb ola biləcəyini vurğulamaq istərdik.

**Dodaq boyası**

Makiyajın vacib tamamlayıcısı və son toxunuşu olan dodaq boyaları bəzən tək çəkildikdə belə daha canlı göstərə bilər. Bununla belə, bütün digər kosmetik məhsullar kimi, dodaq boyalarının da istifadə müddəti var. Yumşaq və yağlı hala gələn dodaq boyaları artıq xarabdır. Bundan əlavə, dodaq boyalarının xarab olduğunu başa düşməyin asan yolu var, qoxusunda dəyişiklik olacaq. Fərqli qoxu daha o pomadadan istifadə etməməyiniz üçün ən böyük siqnaldır.

**Kiprik üçün tuş**

Makiyajın vazkeçilməzi olan tuş çox yaş və ya çox quru olduqda tətbiq etmək çox çətin ola bilər. İlk aldığınız zaman kifayət qədər maye və axıcı olan tuş hava ilə təmasda olduğu üçün zamanla xarab olur və qurumağa başlayır. Nəticədə tuşu sürmək çətinlik yaradacaq. Çəkdiyiniz tuşun kiprikləriniizdə yumru olduğunu görsəniz, istifadəni dayandırmağınız məsləhətdir. Xüsusilə xarab olan tuş, gözə yaxın yerləşdiyi üçün göz infeksiyası kimi arzuolunmaz hallara yol açır.

**Dırnaq boyası**

Xanımların istifadə etməyi sevdiyi rəngli dırnaq boyalarının yararsızlığını başa düşməyin ən asan yolu sürərkən yaşanılan çətinliklər. Dırnaq lakı dırnağınıza sürərkən qalın təbəqə ilə çəkilirsə, çətinliklə quruyur və ya heç qurumursa, dırnaq lakınızın quru olduğunu başa düşə bilərsiniz. Dırnaq boyası şüşədən çıxardığınız zaman saqqız kimi böyüyürsə, maye quruluşunu itirmişsə, xarab olduğuna əmin ola bilərsiniz.

**Aygun Tahir**

# Dərsə gedən uşaqların səhər yeməyi şərtdir

## Türk mütəxəssis valideynlərə tövsiyələrini verir

**Dərslərin başlamasına az vaxt qalır. Uzun yay tətilindən sonra məktəbə hazırlaşan balalar sərt qrafiklə üzləşəcək. Səhər tezdən durmaq, yorucu dərs saatları, repetitor hazırlığı, əlavə məşğələlər... Yorğunluğun qarşısını necə almaq olar? Türkiyəli həkim, qida və dieta mütəxəssisi Başak İnsel Aydın ”Milliyet.com”a məktəblilərin sağlam qidalanmasının tərifini verib.**



Mütəxəssis bildirib ki, araşdırmalara görə, səhər qidalanmadan məktəbə gedən uşaqlar dərsdə fikrini cəmləməkdə, keçilən dərsi qavramaqda çətinlik çəkir. Ona görə də səhər yeməyini gözardı etmək qətiyyən olmaz. Sağlam qidalanma təkcə fiziki yox, zehni inkişafın da açarıdır. Bəs necə edək ki, uşaqlar səhər yeməyini sevsinlər və ona həvəs göstərsinlər? Mütəxəssisin məsləhətləri bunlardır. İlk növbədə valideynlər səhər yeməyini uşaqlar üçün maraqlı təşkil etməyə can atmalıdır. Məsələn, kalorili qida sayılan yumurtanı hər dəfə eyni cür bişirib uşağın önünə qoysanız, əlbəttə bezəcək və yemək istəməyəcək. Halbuki, yumurtanı əyləncəli şəkildə salmaq mümkündür. Analar yumurtanı günəşə bənzədə bilər. Bişmiş yumurtanın ətrafına göyərti düzməklə, güllü-çiçəkli bağça ortaya çıxar. Səhər yeməyində süd, təzə meyvə şirəsi, yumurta, pendir, zeytun, çörək və şirin çay mütləq olmalıdır. Şirin çay tezsorulan qlükoza olduğu üçün qısa zamanda uşağı gümrahlaşdıracaq, əzginlik aradan qaldırılacaq. Səhər yeməyi maraqlı, cəlbedici olsun deyə, tərkibində süd, pendir, yumurta olan müxtəlif kökələr, rulet və kekslər bişirmək olar. Uşağınızın məktəb çantasına nahar qoyacaqsınızsa, çalışın, çəkidə yüngül, kaloridə üstün olan qida və ərzaqlar olsun. Məsələn, quru meyvələr, çərəzlər. Fındıq, qoz, badam, quru meyvələrdən ərik, əncir qurusu, kişmiş. Meyvələrdənsə alma ən uyğun qidadır. Bunlar enerji dəyəri yüksək qidalardır. Maye qəbulunu da yaddan çıxarmayın. Övladınızın su qabı mütləq olsun. Saf su, yaxud kəmşirin meyvə suyu, kompot da ola bilər. Mütəxəssis məsləhət görür ki, evdə qidanın hazırlanmasına övladlar da cəlb edilməlidir. Bu, onlar üçün maraqlı olacaq, üstəlik, sağlam qidaları tanıyacaqlar. Evdə uşaqların iştirakı ilə birgə yemək hazırlayarkən marketlərdə satılan hazır qida məhsulları tərcih edilməməlidir. B.İ.Aydının 9 məsləhəti isə budur:

1. Günə mütləq səhər yeməyi ilə başlamaq.
2. Nahar vaxtlarını təxirə salmamaq.
3. Şəkər və süni şəkərli qidalardan uzaq durmaq.
4. Çox yağlı, duzlu qidalar qəbul etməmək.
5. Qızardılmış yeməklər yeməmək.
6. Meyvə suyu əvəzinə meyvənin özünü tərcih etmək.
7. Gün ərzində bol su içmək (orqanizm tələb etdiyi qədər).
8. Proteinlə zəngin qidalar qəbul etmək.
9. ”Omega-3” yağı üçün cəviz və balıq (dəniz məhsulları) yemək.

**Məlahət Rzayeva**


**Təsisçi və baş redaktor: Akif Aşırlı**
**Baş redaktorun ı müavini: Yusif Nəzərli**
**Redaktor: Ayyət Əhməd**

**Reportyorlar qrupu:**

**Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir**

**Texniki heyət:**
**Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova**

**Qəzet “Şərq”in kompyuter mərkəzində yığılır, səhifələnir və “Azərbaycan” nəşriyyatında çap olunur**

**Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb. Lisenziya: 535**
**www.sherg.az**
**e-mail: sherq-1996@mail.ru**

**Ünvan: Mətbuat prospekti, “Azərbaycan” nəşriyyatı. Telefon: 447-32-41 538-44-50, internet 538-44-15, İndeks: AZ1073**

**Hesab nömrəsi: “Kapitalbank”ın ASC 1 saylı Nəsimi filialı 9900003611 SWIFT BIK AII-BAZ2X h/h AZ17AIIB38070019441100466111 Kod 200112 M/H AZ37NABZ01350100000000001944 VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 2550**



## Bakıda qeyri-adi olay

2 yaşlı körpə bir il nəfəs borusunda sümük parçası ilə yaşayıb

**Bakıda 2 yaşlı körpə bir il nəfəs borusunda sümük parçası ilə yaşayıb.**

"Report" xəbər verir ki, bu barədə körpəni əməliyyat edən uşaq cərrahı Fuad Hüseynov bildirib.

O qeyd edib ki, 2 yaşındakı qız bir il nəfəs borusunda sümük parçası ilə yaşayıb:

"Artıq çətinliklə nəfəs alırdı, xırıltı uzaqdan eşidilirdi. Körpənin 1 yaşı olanda balıq yediyini deyirlər və ondan sonra qızdırma öskürək, xırıltı başlayıb. Aparılan bütün müalicələrə baxmayaraq xırıltı, öskürək getdikcə artırdı və tez-tez temperaturu yüksəlirdi. Valideynləri vəziyyətinin getdikcə pisləşdiyini və vəziyyətinin ağırlığı ilə əlaqədar müraciət etdikləri klinikalarda qəbul etmədikləri üçün bizim klinikaya müraciət etdilər. Ciddi risk daşısa da, körpənin rahat nəfəs alması üçün sümüyü nəfəs borusundan çıxarmaq məcburiyyətində idik. Bronxoskopiya işıqlı alətlə nəfəs borusuna girilərək çətinliklə olsa da, sol ana bronxdan sümüyü problemsiz çıxartdıq. Nəhayət ki, 1 ilin sonunda balaca qızımız rahat nəfəs almağa başladı".

## Adriana üçüncü dəfə ana oldu



**Supermodel Adriana Lima üçüncü dəfə övlad dünyaya gətirib.**

41 yaşlı məşhur və əri, film prodüseri Andre Lemmers yeni doğulan oğlana Sian adı veriblər.

*Qeyd edək ki, rejissor supermodellə 2021-ci ildə görüşməyə başlayıb. Xatıradaq ki, supermodelin daha iki qız övladı var: 12 yaşlı Valentina və 9 yaşlı Sienna. Onların hər ikisi Limanın basketbolçu Marko Yariçlə nikahından doğulub. Cütlük 2014-cü ildə münasibətlərinə son qoyub və bir il sonra boşanıb. Bundan sonra Lima türk yazıçısı Metin Hara ilə yaxın münasibətdə olub, lakin 2019-cu ilin qışında onlar ayrılmaq qərarına gəliblər.*

## Daun sindromlu qızlar üçün toy məclisi quruldu



**Türkiyənin Bursa şəhərində Daun sindromlu gənc qızların arzuları çin olub.**

**Belə ki, yeddi Daun sindromlu qız üçün toy mərasimi həyata keçirilib.**

**"Şərq" oxu.az-a istinadən xəbər verir ki, onlar bəzənmiş maşınlarla ata evlərindən yerli əhalinin alqış sədaları altında şadlıq sarayına aparılıblar.**

**Bəyaz gəlinliklərlə hamının diqqətini çəkən "gəlinlər" qardaşları, ataları və ya qohumları ilə rəqs ediblər.**

## Acunun keçmiş arvadı yeni sevgilisi ilə görüntüləndi



**Acun İlıcalının keçmiş həyat yoldaşı Şeyma Subaşı misirli sevgilisi Mohammed Alsalussi ilə birlikdə Nevada səhrasında keçirilən "Burning Man" festivalına qatılıb.**

**Milli.Az oxu.az-a istinadən xəbər verir ki, bu barədə Şeyma Subaşı sosial şəbəkə hesabında məlumat verib. Subaşının sevgilisi ilə festivaldan səmimi görüntüləri izləyicilər tərəfindən maraqla qarşılanıb.**

***Qeyd edək ki, Şeyma sözügedən festival üçün imicində dəyişiklik edərək saçlarına rəngli afro hörüklər etdirib.***

## İtaliya işığa qənaət edir

Restoranlar şam işığında müştərilərinə yemək verir



**İtaliyada bir restoran elektrik enerjisi qiymətinin bahalaşması səbəbindən işıqları söndürüb və şam yandırıb.**

**"Şərq" " trthaber.com"a istinadən xəbər verir ki, sözügedən restoran elektrik haqqının 500 faizə qədər artması səbəbindən işıqları söndürmək qərarına gəlib.**

**Müştərilərin restoranda şam işığında vaxt keçirdikləri anlar sosial şəbəkədə paylaşılıb. İstifadəçilər paylaşıma "Avropada və ondan kənarda çox isti son bahar olacaq" kimi ironik şərhlər yazıblar.**

**Mütəxəssislər, İtaliyanın 2021-ci ildə 43 milyard avroya başa gələn enerji idxalının bu il 60 milyard avro artacağının da gözləndiyini açıqlayıb.**

**Günəş Mərd**



# "Qiyamət buzlağı" sürətlə əriyir

## Fəlakət bir il ərzində baş verə bilər

**Hazırda ölkəmizdə qeyri-sabit hava şəraiti hökm sürür. Avqust və sentyabrın ilk 5 gününün qovurucu istisindən sonra güclü külək və yağışla müşayiət olunan temperatur enməsi ağıllarda sual doğurdu: bizi qarşıda daha nələr gözləyir? İllərdir haqqında danışılan qlobal istiləşmə, iqlim dəyişiklikləri deyəsən elə budur. Artıq bir neçə ildir ki, mövsümlər demək olar, sezilmir. Qışdan birbaş yay fəslinə, yay fəslindən də birbaşa qışa keçid edilir.**

Payız-yaz itib artıq. Fəsillər 4 yox, 2 olub. Bütün dünyada belədir. Ölkəmizdə müşahidə olunan iqlim dəyişikliyi Cənubi Koreyada, Yaponiyada leysan yağışlar, fırtınalarla özünü göstərir. Türkiyədə də havalar kəskin soyuyub. Dünənədək istidən yanan Qara dəniz sahilləri artıq leysan yağışların əsarətindədir. Səbəb isə əlbəttə ki, qlobal iqlim dəyişikliyi, qlobal istiləşmədir. Bunun təzahürü isə hazırda Arktikada yaşanır. "Qiyamət buzlağı" adını almış nəhəng buzlağ son 200 ildə gözlənildiyindən daha sürətlə əriməyə başlayıb. Bu haqda "Nature Geoscience" dərgisində material dərc olunub. "NTV.com.tr"nin yazdığına görə, alimlər buzlağın sürətlə əriməyə başladığı xəbərdarlığı edir. "Qiyamət buzlağı" barmaqlarının ucunda dayanıb" yazan alimlər dünyanı gözləyən fəlakətdən xəbər verir. Hətta "fəlakət bu il ərzində baş verə bilər", anonsu da edirlər. Alimlərin son tədqiqatı nəticəsində müəyyən edilib ki, "Qiyamət buzlağı" adı verilmiş "Thwaites" buzlağı son 200 ildə gözlənildiyindən 2 dəfə artıq sürətlə geri çəkilir - əriyir. Antarktikadakı buzlağın hərəkətləri kosmosdan görüntülənib. Alimlər bu qənaətdədir ki, buzlağın sürətlə geri çəkilməsi dünya okeanında suyun səviyyəsini 3 metrədək yüksəldəcək. Nəticədə 1 il içində müxtəlif səpkili təbii fəlakətlər baş verəcək. Haqqında danışılan buzlaq Antarktikanın qərbindədir. Cənubi Florida Universitetinin Dəniz Elmləri Kollecinin tədqiqatçıları buzlağın yeni görüntülərinin elm üçün yeni geoloji özəlliklərə malik olduğunu bildirir. Eyni zamanda bu görüntülər gələcəkdə hansı təbii hadisələrin ortaya çıxacağına dair proqnoz verilməsini asanlaşdırır. "Qiyamət buzlağı" son 200 ildə, 6 aydan daha qısa bir müddətdə dənizin altı ilə təmasını itirib və 1-2 kilometrdən yüksək bir süətlə əriyib. Bu hadisə 2011 və 2019-cu ildəki əriмədən 2 dəfə çoxdur. İngiltərənin dəniz geofiziki Robert Larter isə bildirib ki, "Thwaites" buzlağı hazırda "barmaqlarının ucunda" dayanıb və hər an misli görünməmiş fəlakət saça bilər. Bu, hazırkı 1 il içində də baş verə bilər. Odur ki, iqlimdəki kəskin dəyişmələrə təəccüb etməməliyik. Dünya qlobal iqlim böhranı içindədir, o cümlədən də biz. Qlobal iqlim dəyişikliyinin həm də dünyada aclıq, iqtisadi böhran yaradacağı qaçılmazdır.



**Məlahət Rzayeva**



# Min illik tarixi olan "vampir" məzarı tapılıb

## Dirilməməsi üçün cəsədin boğazına oraq bağlanıb

**Polşa kəndlərindən birində boğazı oraqla, ayaqları isə asma qıfılla yerə bərkidilmiş "qadın vampir"in qalıqları tapılıb.**



Pien kəndində 17-ci əsrə aid qəbiristanlıqda aparılan arxeoloji işlər zamanı tapıntını aşkarlayan tədqiqatçılar qadın skeletin başında ipək papaq aşkarlayıblar ki, bu da onun yüksək sosial statusa malik olduğunu nümayiş etdirir. Bundan əlavə, skeletin ön dişləri qeyri-adi şəkildə iti olub.

Komanda rəhbəri, Nikolas Kopernik Universitetinin Prof. Dr. Dariusz Polinski qadının dəfn edilmə tərzinin qeyri-adi olduğunu bildirib.

Polinski əlavə edib ki, skeletin sol ayağındakı asma kilidli baş barmaq, yəqin ki, "bir dövrün bağlanmasını və geriyə qayıtmağın mümkünsüzlüyünü" simvollaşdırır.

Digər tərəfdən, Şərqi Avropada ölməzlərlə bağlı əfsanələr 11-ci əsrə gedib çıxır. İnsanlar basdırılmış bəzi canlıların qaniçən canavarlar kimi səthə çıxacağından ehtiyatlanıblar.

Tədqiqatçılar qadın məzarının tapıldığı ərazidə mərhumun kəlləsinə metal çubuq, yaxud dirəyin qoyulduğu qəbiristanlıqlara tez-tez rast gəlindiyini və bunun dövrün insanlarının inancları ilə bağlı olduğunu qeyd ediblər.

Mütəxəssislər xüsusilə slavyan xalqları arasında vampir əfsanələrinə inancın 11-12-ci əsrlərdə geniş vüsət aldığını, kütləvi isterikaya səbəb olduğunu və vampir olduğu düşünülən insanların edam edildiyini bildiriblər. Vaxtsız vəfat edən insanlar üçün (məsələn, intihar) tez-tez onların vampirizmdən şübhələndikləri və ölülərdən dirilməsinin qarşısını almaq üçün bədənlərinin parçalandığı qeyd edilib.

*Qeyd edilir ki, 2015-ci ildə Polşanın şimal-qərbindəki Drevsko şəhərində işləyən arxeoloqlar 400 illik qəbiristanlıqda eyni şəkildə basdırılmış 5 skelet tapmışdılar. Yaşı 35-44 arasında olan yetkin kişi və 35-39 yaşlı yetkin bir qadının boğazına oraq sıxıldığı aşkar edilib.*

*Öləndə 50-60 yaşlarında olan qoca qadını ombasına oraq, boğazına orta ölçülü daş basdırıblar.*

**Turan**

## Sümükləri gücləndirir

Yatmazdan əvvəl süd içmək lazımdır



**Yatmazdan əvvəl süd içmək sağlamlığa faydalıdır.**

"Şərq" "CNN Türk"ə istinadən xəbər verir ki, süd böyük qida mənbəyidir. Mütəxəssislərin fikrincə, yatmazdan öncə süd içmək sümükləri gücləndirir. Südün daha tez yuxuya getmək, hətta arıqlamaq kimi inanılmaz xeyirləri var. Tərkibində yuxu keyfiyyətini yaxşılaşdıra bilən komponentlər mövcuddur. İnsan və heyvanlar üzərində aparılan bir çox araşdırma süd içməyin keyfiyyətli yuxu almağa kömək etdiyini sübut edib. Süddə triptofan və melotonin mövcuddur ki, bu da daha asan və tez yuxuya getməyə kömək edir.

Triptofan əhvalı yaxşılaşdıran, rahatlamağa kömək edən serotonin istehsalında mühüm rol oynayır. Həmçinin melotonin sirkadiyalı ritmi tənzimləməyə kömək edir və insanı yuxuya hazırlayır. Tədqiqatlar göstərir ki, melatonin və triptofan əlavələrinin qəbulu yatmazdan əvvəl baş verən narahatlıq və depressiya əlamətlərini azalda bilər.

**Sücayət Mehti**

## Məsafədən idarə olunan canlı kiborq-tarakan yaradıldı



**Yapon alimləri tarakana elektrodlar quraşdırıb və onu uzaqdan idarə etməyi öyrəniblər.**

Oxu.az xəbər verir ki, tədqiqatın nəticələri "NPJ Flexible Electronics" jurnalında təsvir edilib.

Qabaqcıl Elmlər Mərkəzinin mütəxəssisləri Madaqaskar tarakanından kiborq hazırlamaq qərarına gəliblər. Onlar həşəratı idarəetmə modulu və litium polimer akkumulyatorla təchiz ediblər.

Təcrübələr zamanı batareya günəş işığı simulyatoru ilə doldurulub. Elektrik impulslarına məruz qaldıqda, həşərat bu və ya digər istiqamətə çevrilib.

Tədqiqatçılar bu nailiyyətdən çətin nüfuz edilən obyektləri öyrənmək üçün istifadə etməyi təklif edirlər. Bundan əlavə, yeni texnologiyadan uçan həşəratlar üçün də istifadə edilməsi planlaşdırılır.